QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 125 (5597) 6 **iyul** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# “Azərbaycanda əsl vətəndaş həmrəyliyi mövcuddur”

*İlham Əliyev: “Elə bir tədbirlər planı hazırlanmalıdır ki, gələcəkdə biz bu qəzalardan və qəzaların törədə biləcəyi fəsadlardan özümüzü qoruya bilək”*



Səh 3

4

Azərbaycan Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığın daha da inkişafında maraqlıdır



6

Siyavuş Novruzov: “3-5 manat müqabilində xalqa müraciət etmək yersizdir”



8

Rusiyalı ekspertlərinin Azərbaycanı dəstəkləməsi ölkəmizin növbəti qələbəsidir



# "Dünya Səhiyyə Təşkilatı hər zaman Azərbaycanın təşəbbüslərinə və səylərinə dəstək verib"

*Prezident İlham Əliyev Dünya Səhiyyə Təşkilatının baş direktorunu qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun rəhbərlik etdiyi təşkilatla Azərbaycan arasında uğurlu əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev qeyd etdi ki, Dünya Səhiyyə Təşkilatı hər zaman Azərbaycanın təşəbbüslərinə və səylərinə dəstək verib və Tedros Adhanom Qebreyesusun bu səfəri əlaqələrimizin daha da möhkəmlənməsi baxımından önəmlidir. Səhiyyənin Azərbaycanda prioritet sahələrdən biri olduğunu qeyd edən dövlətimizin başçısı son illər ölkəmizdə bu sahədə böyük işlərin görüldüyünü, xeyli sayda yeni xəstəxanaların və tibb mərkəzlərinin tikildiyini vurğuladı. Prezident İlham Əliyev məmnunluq hissi ilə qeyd etdi ki, hazırda Azərbaycanın hər bir şəhərində bütün lazımi tibbi xidmətləri əhatə edən ən müasir avadanlıqla təchiz olunmuş tibb ocaqları fəaliyyət göstərir. Görülən bütün bu işlər orta yaş həddinin artması və uşaq ölümünün azalmasına öz müsbət təsirini göstərib. Prezident İlham Əliyev Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminliyini bildirib.

Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus, ilk növbədə, prezident seçkilərində qələbə qazanması münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Tedros Adhanom Qebreyesus Dünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlıqla bağlı görülən işlərdən danışdı. Azərbaycanda səhiyyə sahəsində həyata keçirilən islahatlara, ölkəmizin hər yerində ən müasir tibb ocaqlarının inşa edilməsinə toxunan qonaq bu istiqamətdə əldə edilən nailiyyətləri Azərbaycan dövlətinin və şəxsən Prezident İlham Əliyevin səhiyyəyə göstərdiyi yüksək diqqət və qayğının nəticəsi kimi qiymətləndirdi. Dünya Səhiyyə Təşkilatının baş direktoru ölkəmizdə qaçqın və məcburi köçkünlərə göstərilən yüksək dövlət qayğısından da danışaraq bildirdi ki, bu sahədə Azərbaycanın təcrübəsi bir çox Avropa ölkələrinə nümunə ola bilər. Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# "Azərbaycan ilə Finlandiya arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar var"

*Prezident İlham Əliyev Finlandiyanın xarici ticarət və inkişaf nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin Azərbaycana səfərinin ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlıq, o cümlədən ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi və bunun üçün geniş potensialın mövcud olduğunu vurğuladı. Prezident İlham Əliyev nəqliyyat dəhlizi sahəsində də əməkdaşlığın önəm daşıdığını bildirərək qeyd etdi ki, Azərbaycan hazırda tərəfdaş və qonşu ölkələr arasında nəqliyyat bağlantısının yaradılması işinə fəal sürətdə investisiya qoyur və ölkəmiz mühüm Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizinə çevrilməkdədir. Şimal-Cənub nəqliyyat layihəsinin uğurlu icrasına başlanmışdır. Azərbaycan bu sahəyə böyük həcmdə sərmayə qoyur. Dövlətimizin başçısı iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından biznes sahəsində fəallığın artırılmasının vacibliyini də qeyd etdi. Azərbaycanda Finlandiyanın bir neçə şirkətinin çalışmasına toxunan Prezident İlham Əliyev bu şirkətlərin sayının daha da artırılmasının mümkün olduğunu dedi və bildirdi ki, Azərbaycanın iqtisadi inkişafı, perspektiv planlar, güclü iqtisadi infrastruktur digər xarici şirkətlər kimi, Finlandiya şirkətlərinin də iqtisadiyyatımızın müxtəlif sahələrində fəal çalışmaları üçün yaxşı imkanlar yaradır.

Xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleynin Finlandiya Prezidenti Sauli Niinistönün salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq Azərbaycan Prezidenti ilə Finlandiya Prezidentinin Davosda keçirilən görüşünün məmnunluqla xatırlandığını bildirdi. Finlandiyanın xarici ticarət və inkişaf naziri ölkəmizə səfər proqramının çox məzmunlu olduğunu deyərək, səfər zamanı məhsuldar görüşlər keçirəcəyinə ümidvar olduğunu söylədi. O, Bakının gözəlliyinin nümayəndə heyəti üzvlərində böyük təəssürat doğurduğunu qeyd etdi və paytaxtımızda tarixi arxitektura abidələrinin müasir binalarla gözəl vəhdət təşkil etdiyini vurğuladı. Xanım Anne-Mari Viroleynin bildirdi ki, ölkələrimiz ümumi tarixə malikdirlər və Azərbaycan ilə Finlandiya arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar var.

Görüşdə ölkələrimiz arasında energetika, tranzit, peşə təhsili, infrastruktur layihələrində Finlandiya şirkətlərinin iştirakı, iş adamları arasında ticarət əlaqələrinin artırılması, sərmayə qoyuluşu, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Finlandiya Prezidenti Sauli Niinistönün salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Finlandiya Prezidentinə çatdırmağı xahiş etdi.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Rüstəm Xəlilovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Rüstəm Gülabba oğlu Xəlilov "Şöhrət" ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev Tərlan Qorçuya "Əməkdar incəsənət xadimi" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Tərlan Böyükbala oğlu Qorçuya "Əməkdar incəsənət xadimi" fəxri adı verilsin.

***

Prezident İlham Əliyev Tamara Sinyavskayanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Rusiya-Azərbaycan mədəni əlaqələrinin möhkəmləndirilməsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Tamara İlyiniçna Sinyavskaya "Şərəf" ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev Sumqayıt Dövlət Dram Teatrının 50 illiyi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 dekabr tarixli 1774 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1148-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1146-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

# "Azərbaycanda əsl vətəndaş həmrəyliyi mövcuddur"

## İlham Əliyev: "Elə bir tədbirlər planı hazırlanmalıdır ki, gələcəkdə biz bu qəzalardan və qəzaların törədə biləcəyi fəsadlardan özümüzü qoruya bilək"

**Mingəçevirdə yerləşən "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə məxsus "Azərbaycan İstilik-Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinin yarımstansiyalarının birində baş verən qəza nəticəsində ölkəmizdə enerji təchizatında ciddi problemlər yaşandı. Respublikanın elektrik enerjisinin əsas ötürücülərindən olan birinci "Abşeron" elektrik hava xətti ilə elektrik cərəyanı verilişi tam dayandı, stansiyanın avtomatika və idarəetmə sistemi pozuldu.**

Bununla əlaqədar Bakı və Gəncə şəhərləri də daxil olmaqla, respublikanın bəzi rayonlarının elektrik enerjisi təminatında fasilə yarandı. Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan İstilik-Elektrik Stansiyası" MMC-nin yarımstansiyalarından birində baş vermiş qəza ilə əlaqədar Dövlət Komissiyası yaradılması haqqında Sərəncam imzaladı. Sərəncama əsasən, Dövlət Komissiyasına hadisənin baş verməsi səbəblərini araşdırmaq və bu barədə Azərbaycan Prezidentinə məlumat vermək, qəzanın nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər müəyyənləşdirmək və həyata keçirmək, görülmüş işlər haqqında dövlət başçısına mütəmadi məlumat vermək tapşırıldı. Dövlət Komissiyasının ilk iclasında qəzanın səbəbləri, nəticələrinin aradan qaldırılması ilə bağlı tədbirlər müzakirə olundu və bununla əlaqədar müvafiq vəzifələr müəyyən edildi. İlk növbədə, xüsusi həyati əhəmiyyətli obyektlərə - xəstəxanalara, metroya, hava limanına, Neft Şirkətinə və digər bu kimi obyektlərə elektrik enerjisinin verilməsi təmin edildi. Qısa zamanda ölkəmiz və paytaxt Bakı şəhəri enerji ilə tam təmin edildi.



### "KOMİSSİYA GÜNAHKARLARI MÜƏYYƏN ETMƏLİ, ONLARA QARŞI GÖRÜLƏCƏK TƏDBİRLƏR HAQQINDA TƏKLİFLƏR VERMƏLİDİR"

İyulun 6-da Prezident İlham Əliyevin yanında ölkənin enerji sistemində vəziyyətlə əlaqədar keçirilən müşavirədə, Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, görülmüş operativ tədbirlər nəticəsində bir neçə saatdan sonra enerjinin verilməsi bərpa edilmişdir. Ölkə başçısı məlum Sərəncama əsasən, məsələni araşdırmaq üçün Dövlət Komissiyasının yaradıldığını və komissiya qarşısında bir neçə vəzifə qoyulduğunu diqqətə çatdırıb: "Onların arasında əsas vəzifə məsələni araşdırmaq və qəzanın səbəblərini aşkar etməkdir. Eyni zamanda, komissiya günahkarları müəyyən etməli, onlara qarşı görüləcək tədbirlər haqqında təkliflər verməlidir və gələcəkdə belə qəzaların təkrarlanmaması üçün tədbirlər planı hazırlamalıdır".

Prezident İlham Əliyev bütün dövlət orqanlarına verilən ciddi tapşırıqlar nəticəsində vəziyyətlə bağlı vətəndaşlara kömək göstərildiyini diqqətə çatdırıb. Cənab Prezidentin tapşırığı ilə tez bir zamanda asayişin qorunması və təhlükəsizliyin təmin edilməsi üçün əlavə tədbirlər həyata keçirildi. "Onların çox uğurlu fəaliyyəti nəticəsində bu qəza, demək olar ki, aradan qaldırıldı. Baxmayaraq ki, vətəndaşlara böyük əziyyət verildi, heç bir ağır hadisə baş verməmişdir", - deyən ölkə başçısı Azərbaycan vətəndaşlarının da bu məsələ ilə bağlı böyük məsuliyyət, böyük vətəndaş həmrəyliyi göstərdiklərini bildirib: "Bütövlükdə, Azərbaycan cəmiyyəti bu çətin sınaqdan şərəflə çıxa bilmişdir... Bu, bir daha onu göstərir ki, Azərbaycan cəmiyyəti çox yetkin cəmiyyətdir və Azərbaycanda, sözün əsl mənasında, vətəndaş həmrəyliyi mövcuddur".

### "HƏM BİRİNCİ, HƏM İKİNCİ DƏFƏ OPERATİV TƏDBİRLƏR NƏTİCƏSİNDƏ ENERJİNİN VERİLMƏSİ BİR NEÇƏ SAAT ƏRZİNDƏ BƏRPA EDİLDİ"

Bütün dövlət orqanları bu vəzifənin icrasında böyük peşəkarlıq göstərmiş oldular. Nəqliyyat məsələləri tənzimləndi, xətlərə yeni avtobuslar çıxarıldı ki, sərnişinlərin rahat hərəkəti təmin edildi. Metroda 18 sərnişin qatarının 9-nun stansiyalarda, 9-nun isə tunellərdə dayanması, stansiyalarda kritik vəziyyətin baş verməsi vətəndaşlarda çaşqınlıq yaratmadı. Təxliyə işlərinin vaxtında və nizamlı şəkildə həyata keçirilməsi, şəhər nəqliyyatının idarə olunması üçün tədbirlərin görülməsi bütün çətinlikləri tənzimləmiş oldu.

Görülən tədbirlər, ölkənin bütün sahələrinin yenidən öz həyatına, qısa bir zaman məsafəsində qayıtmasına baxmayaraq, Cənab Prezident ancaq iki dəfə baş vermiş qəzanın çox ciddi araşdırılmasını bildirib. Son illər ərzində Azərbaycanın enerji sektoruna çox böyük investisiyalar qoyulduğunu diqqətə çəkən Prezident 15 il ərzində Azərbaycanda onlarla yeni elektrik stansiyasının istifadəyə verildiyini qeyd edib. Bu müddət ərizində 30 stansiya tikilib. Hazırda "Şimal-2" elektrik stansiyasının tikintisi davam edir. 15 il ərzində 2500 meqavat gücündə yeni elektrik stansiyaları tikilib. Azərbaycanın enerji potensialı 6400 meqavata bərabərdir. Onun 2500 meqavatının son 15 il ərzində yaradıldığını bildirən ölkə başçısı ölkəmizin bütün bölgələrində yeni elektrik stansiyalarının - Bakı, Sumqayıt, Şirvan şəhərlərində, Astara, Xaçmaz, Şəki, Quba rayonlarında olduğunu qeyd edib. Eyni zamanda, bölgələrdə suelektrik stansiyaları yaradıldığını vurğulayıb: "Yəni bu stansiyaların coğrafiyası, onu göstərir ki, biz çalışırdıq, ölkəmizin bütün bölgələrində yeni stansiyalar tikilsin ki, enerji sisteminin dayanıqlılığı təmin edilsin. Ancaq bir qəza nəticəsində demək olar ki, bütün enerji sistemi sıradan çıxdı. Bu məsələ çox ciddi suallar yaradır. Bu məsələ çox ciddi araşdırılmalıdır. Bu qəza nəticəsində, bu isti havada insanlara böyük əziyyət verildi, iqtisadiyyata böyük ziyan vuruldu. Düzdür, həm birinci, həm ikinci dəfə operativ tədbirlər nəticəsində enerjinin verilməsi bir neçə saat ərzində bərpa edildi. Ancaq bu qəzalar baş verməməli idi. Əgər baş versəydi belə, fəsadlara gətirib çıxarmamalı idi".

Bir stansiyada baş vermiş qəzanın bütün enerji sistemimizə çox böyük zərbə vurduğunu deyən dövlət başçısı çox ciddi araşdırmaların aparılmasını, günahkarların məsuliyyətə cəlb edilməsini bildirib: "Bir daha qeyd etmək istəyirəm, elə bir tədbirlər planı hazırlanmalıdır ki, gələcəkdə biz bu qəzalardan və qəzaların törədə biləcəyi fəsadlardan özümüzü qoruya bilək".

Cənab Prezident isti havalarla bağlı istehlakın artmasının qəzanın səbəbi ola bilmədiyini, qəzanın səbəblərini komissiyanın araşdıracağını bildirib. Müşavirədə aidiyyəti tərəflərə tapşırıqlarını verən Azərbaycan Prezidenti qısa müddət ərzində həm birinci qəzanın, xüsusilə də, ikinci qəzanın səbəbləri haqqında Ona məruzə edilməsini diqqətə çatdırıb: "Bir daha demək istəyirəm ki, qəzanın səbəbləri araşdırılmalıdır. İndi ilkin məlumat var, amma gərək daha geniş məlumat əldə edilsin. Qəzanın səbəbləri vacib olsa da, bundan daha önəmli məsələ qəza nəticəsində ümumi sistemin sıradan çıxmasıdır. Bu, çox ciddi bir faktdır və əlavə tədbirlər görülməlidir ki, gələcəkdə əgər hər hansı bir qəza baş verərsə, ümumi sistemə bunun təsiri olmasın, yəni qəza lokal xarakter daşısın. Bu, hesab edirəm ki, komissiyanın işində əsas istiqamət olmalıdır".

### "...METRONUN BÜTÜN STANSİYALARINDA GENERATORLAR OLSUN VƏ ENERJİ İLƏ HƏR HANSI BİR PROBLEM YARANDIQDA, İNSANLAR ƏZİYYƏT ÇƏKMƏSİNLƏR"

Strateji obyektlərdə generatorların quraşdırılması məsələsinə də nəzər salarkən, Cənab Prezident xəstəxanalarda və metroda buna xususi ilə diqqət yetirilməsinin vacibliyini bildirib. Bəzi xəstəxanalarda generatorların işləmədiyini bildirərək ciddi təftiş aparmağı, bütün ölkə üzrə xəstəxanalarda generatorların mövcudluğu və onların işlək vəziyyətdə olmaları haqqında həm komissiyaya, həm də Azərbaycan Prezidentinə məruzə etməyi tapşırıb: "O ki qaldı metropolitenə, ümumiyyətlə, bildiyimə görə, metropolitendə generatorlar mövcud deyil. Hesab edirəm ki, bu da, çox acınacaqlı faktdır. Tezliklə təkliflər verin ki, metronun bütün stansiyalarında generatorlar olsun və enerji ilə hər hansı bir problem yarandıqda, insanlar əziyyət çəkməsinlər".

Cənab Prezident tapşırıqlarını verərkən, hazırlanacaq tədbirlər planına müşavirədə səsləndirilən fikirlərin salınmasını vurğulamaqla yanaşı, ölkəmizin bütün enerji sisteminin beynəlxalq, aparıcı, bu sahədə peşəkarlıqla seçilən qurumlar tərəfindən təhlilinin aparılmasını və təkliflər verilməsini də bildirib.

*Nəzakət ƏLƏDDİNQIZI*

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

6 iyul 2018-ci il



# Azərbaycan Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığın daha da inkişafında maraqlıdır

***A**zərbaycan Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığın daha da inkişafında maraqlıdır. Bu fikir iyulun 5-də Azərbaycanın Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədovun Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus ilə görüşündə səslənib.*

Əli Əhmədov Azərbaycan Hökumətinin Dünya Səhiyyə Təşkilatı ilə mövcud əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirdiyini və əlaqələrin möhkəmləndirilməsi istiqamətində konkret və praktiki addımların atılmasında maraqlı olduğunu vurğulayıb.

Azərbaycanın səhiyyə sistemindən danışan Baş nazirin müavini qeyd edib ki, ölkəmizdə bu sahənin yenidən qurulması və inkişaf etdirilməsi məqsədilə xeyli işlər görülüb. O bildirib ki, Azərbaycan Hökuməti öz vəzifələrinə kifayət qədər məsuliyyətlə yanaşır. Prezident İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb və Şuranın daimi əsaslarla fəaliyyət göstərən Katibliyi formalaşıb. Azərbaycan Hökuməti Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirmək üçün bütün qüvvələrini səfərbər edib və Baş nazirin müavininin Milli Əlaqələndirmə Şurasına sədr təyin olunması bu məsələyə olan diqqətin göstəricisidir. Milli Əlaqələndirmə Şurası qısa vaxt ərzində bir çox mühüm işlər görüb.

Baş nazirin müavini diqqətə çatdırıb ki, Azərbaycan qlobal əməkdaşlıqlara çox böyük əhəmiyyət verir. Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində həyata keçirilən tədbirlərin reallaşmasında BMT-nin verdiyi dəstək böyük önəm kəsb edir.

Görüşdə son illər Azərbaycanda səhiyyə sahəsində həyata keçirilən layihələr, tibbi sığortanın əhəmiyyəti, səhiyyə infrastrukturunun yenilənməsi istiqamətində görülən işlər haqqında məlumat verilib. Diqqətə çatdırılıb ki, bütün bunlar Azərbaycan vətəndaşının layiqli səhiyyə xidməti ilə təmin olunmasına hesablanıb.

Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus ölkəmizdə olmasından və burada gördüyü yüksək qonaqpərvərlikdən məmnunluğunu ifadə edib. Azərbaycanda səhiyyə sahəsində görülən işləri yüksək dəyərləndirdiklərini vurğulayan qonaq bunun yaxşı nəticələrə yol açacağını deyib. Baş direktor bu ilin Azərbaycan üçün əlamətdar olduğunu deyərək, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı təbriklərini çatdırıb.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında müzakirələr aparılıb.

# Eldar İbrahimov: Şübhəsiz ki, dövlət başçısının ciddi nəzarəti altında problemin səbəbləri araşdırılacaq və müvafiq tədbirlər görüləcək



“Dünyanın heç bir ölkəsi qəzadan sığortalı deyil. Bu baxımdan, elektrik enerjisi sahəsində indiyə qədər inkişaf etmiş ölkələrdə də ciddi problemlər yaşanıb. Azrbaycanda bir neçə gün öncə bu sahədə baş vermiş qəzanın nəticələri demək olar ki, tam aradan qaldırılıb”. Bu fikirləri YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov deyib.

E.İbrahimov bildirib ki, iyulun 4-də Azərbaycan Prezidenti İlham Əliyevin yanında ölkənin enerji sistemində vəzyyətlə əlaqədar keçirilən müşavirədə dövlət başçısı hadisənin araşdırılması üçün ciddi tapşırıqlar verdi. Onun sözlərinə görə, son 15 ildə Azərbaycanda xeyli sayda yeni elektrik stansiyası istifadəyə verilib. “Müşavirədə dövlət başçısının qeyd etdiyi kimi, son 15 il ərzində 2500 meqavat gücündə yeni elektrik stansiyaları tikilib. Bütövlükdə ölkəmizin enerji potensialı hazırda 6400 meqavata bərabərdir. Onun da 2500 meqavatı son 15 il ərzində yaradılıb. Cənab Prezident vurğuladı ki, ölkəmizin bütün bölgələrində yeni elektrik stansiyaları və su elektrik stansiyaları yaradılıb. Bütün bunlar enerji sisteminin dayanıqlılığının təmin edilməsi baxımından çox önəmlidir. Ancaq bir qəza nəticəsində demək olar ki, ölkəmizin enerji sistemində bir neçə gün öncə müşahidə edilmiş ciddi problemlər əlbəttə suallar doğurur. Dövlət başçısı məsələnin qısa müddətdə araşdırılmasını və ciddi tədbirlər görülməsini tapşırdı”, - deyə E.İbrahimov qeyd edib.

O, elektrik sistemində yaranmış problemlərin aradan qaldırılması ilə bağlı dövlət qurumlarının işinin təqdirəlayiq olduğunu vurğulayaraq, ictimaiyyət nümayəndələrinin də baş verənlərə münasibətini də müsbət qiymətləndirib. “Çox yaxşı haldır ki, qəzanın nəticələrinin aradan qaldırılmasında müvafiq dövlət qurumları yaxşı işlədilər və üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirdilər. Eyni zamanda, Azərbaycan cəmiyyəti də bu çətin sınaqdan şərəflə çıxdı. Belə çətin anlarda insanlar bir birilərinə dəstək oldu, həmçinin hansısa profakasiya xarakterli çağırışlara uymadılar. Şübhəsiz ki, dövlət başçısının ciddi nəzarəti altında bu problemin səbəbləri araşdırılacaq və müvafiq tədbirlər görüləcək. Gələcəkdə belə hadisələrin təkrarlanmaması üçün lazımi addımlar atılacaq”-deyə, E.İbrahimov vurğulayıb.

# Lənkəranda “Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər” mövzusunda regional konfrans işə başlayıb

***Ö**lkəmizdə tarixən mövcud olan dini dözümlülük ənənələrinin qorunması və inkişafı, eləcə də multikultural dəyərlərin təbliği Azərbaycan dövlətinin əsas siyasi prioritetlərindəndir.*






AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu fikir iyulun 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Lənkəran Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər” mövzusunda keçirilən regional konfransda səsləndirilib.

İki gün davam edəcək regional konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Lənkəran Şəhər İcra Hakimiyyətinin məsul işçiləri, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, yerli hüquq mühafizə orqanlarının rəhbərləri, YAP Lənkəran şəhər təşkilatının fəalları, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, ictimaiyyətin təmsilçiləri iştirak ediblər.

Konfransda dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas istiqamətləri, multikultural dəyərlərin qorunması, eyni zamanda, tolerantlıq mühitinə, milli mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi barədə müzakirələr aparılıb.

Toplantıda çıxış edən Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Möhübbət Babayev son illər ölkəmizin bütün bölgələrində olduğu kimi, Lənkəran rayonunda da dini maarifləndirmə və milli mənəvi dəyərlərin təbliği istiqamətində görülən işlərdən danışıb. Qeyd olunub ki, hazırda Lənkəran rayonunda fəaliyyət göstərən 83 məscidin 46-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınan dini icma fəaliyyət göstərir. Rayonda bütün vətəndaşların özlərinin adət-ənənələrini və dini ayinlərinin icrası üçün lazımi şərait yaradılıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması istiqamətində görülən işlərdən danışaraq, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılmasının Ümummilli Liderin adı ilə bağlı olduğunu bildirib. Ulu Öndərin dövlət-din münasibətləri sahəsində qoyduğu bu nümunəvi siyasətin onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla aparılmasının nəticəsidir ki, Azərbaycanda dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir.

Dövlət Komitəsinin sədri hazırda Yaxın və Orta Şərqdə baş verən müharibələr, qanlı toqquşmaların fonunda ölkəmizdə azərbaycançılıq məfkurəsinin, milli mənəvi, dini dəyərlərin, tolerantlıq siyasətimizin təbliği və daha da möhkəmləndirilməsinin, bu mühitin qorunub saxlanılmasının həyata keçirilən din siyasətinin mühüm istiqamətlərini təşkil etdiyini vurğulayıb. Mübariz Qurbanlı cəmiyyətimizdə gənc nəsli milli mənəvi dəyərlərə uyğun, milli ruhda yetişdirməyin olduqca əhəmiyyətli amil olmasına da toxunub. Bu sahədə dövrün tələblərinə uyğun islahatların aparılması, savadlı milli kadrların hazırlanması və milli mənəvi dəyərlərimizin təbliğ və təşviq edilməsinin dövlət-din münasibətlərinin tənzimlənməsi işində müsbət nəticələr verəcəyini qeyd edib.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Qəni Axundzadə dinə dövlət qayğısından danışaraq ölkəmizin cənub bölgəsində dini durumun sabit olduğunu bildirib.

Sonda iştirakçılara Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən çap olunan kitablar paylanılıb. Regional konfrans işini iyulun 6-da “Dini radikalizmlə mübarizə və maarifləndirmə” mövzusunda panellə davam etdirəcək.

# Gənclər və idman naziri Abşeron rayonunda vətəndaşları qəbul edib

***G**ənclər və idman naziri Azad Rəhimov iyulun 5-də Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində Sumqayıt şəhərinin və Abşeron, Xızı, Şamaxı, Qobustan rayonlarının sakinlərini qəbul edib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azad Rəhimov və Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova Heydər Əliyev Mərkəzinin qarşısında Ümummilli Liderin abidəsi önünə gül dəstələri düzüblər.*



Qəbulda ümumilikdə 20-yə yaxın sakinin müraciətləri dinlənilib. Gənclər sahəsinə aid müraciətlər əsasən, qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, gənclərlə bağlı müxtəlif layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, yay-qış istirahət düşərgələrinin təşkili, Gənclər mərkəzlərinin müvafiq avadanlıqla təmin edilməsi və fəaliyyəti məsələləri ilə bağlı olub.

İdman sahəsi üzrə isə fəxri adların verilməsi, idman mərkəzlərinin avadanlıqla təminatı, yeni Olimpiya İdman komplekslərinin, idman mərkəzlərinin tikintisi və təmiri, Uşaq Gənclər və İdman mərkəzlərinin (UGİM) və bölmələrin yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı və s. məsələlərlə bağlı müraciətlər edilib. Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

# Kəngərli rayonunda yeni yaşayış binası inşa olunur



Muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlər içərisində hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur. Hərbi hissələrdə istifadəyə verilən yeni yaşayış binaları zabit-gizir ailələrinin rahat yaşayışını təmin edir. Bu il də Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün yeni yaşayış binası tikilir.

İyulun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada aparılan tikinti işləri ilə maraqlanıb.

Bildirilib ki, 44 mənzilli yaşayış binası 5 mərtəbədən ibarət olacaq. Hazırda binanın birinci mərtəbəsində tikinti işləri başa çatdırılıb. İki, üç

***Kəngərli rayonunun Qıvraq qəsəbəsi aparılan kompleks quruculuq işlərindən sonra müasir görkəm alıb. İstifadəyə verilən sosial obyektlər, yaradılan istehsal müəssisələri qəsəbənin simasını tamamilə dəyişib, sakinlərin rahat yaşayışı təmin olunub, məskunlaşma artıb. Həyata keçirilən tədbirlərin davamı olaraq bu il Qıvraq qəsəbəsində gənc ailələr üçün yeni yaşayış binası tikilir.***





və dörd otaqlı mənzillərdə bütün kommunal-məişət şəraiti yaradılacaq, fərdi istilik sistemi qurulacaq, mebel dəstləri və digər ev əşyaları qoyulacaqdır. Binanın həyəti də abadlaşacaq, avtomobil dayanacağı istifadəyə veriləcəkdir. Sonra Ali Məclisin Sədri Qıvraq qəsəbəsində salınan yeni istirahət parkına da baxıb.

Məlumat verilib ki, sakinlərin və hərbçi ailələrinin mənalı istirahətini təmin etmək üçün parkda yaşıllıq və gülkarlıq sahələri ayrılıb, gəzinti yolları çəkilib. Parkda fəvvarə və müasir işıqlandırma sistemi quraşdırılacaq, oturacaqlar qoyulacaq, dayanacaq yaradılacaqdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyulun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri Vasif Talıbov yaşayış binasında görülən işlərlə tanış olub. Məlumat verilib ki, zirzəmi ilə birlikdə 7 mərtəbədən və 2 girişdən ibarət olan yaşayış binasında əsas tikinti işləri başa çatdırılıb. Hazırda binanın fasadında üzləmə işləri görülür, mənzillər təmir olunur. 48 mənzilli binada 2 lift istifadəyə veriləcək, zirzəmidə xidmət sahələri yaradılacaqdır. Mənzillərdən 36-sı ikiotaqlı, 12-si isə 3 otaqlıdır. Binada bütün kommunikasiya xətləri çəkilib.

Yaşayış binasının həyətində də abadlıq işləri aparılacaq, yaşıllıqlar salınacaq, avtomobil dayanacağı istifadəyə veriləcəkdir.

Ali Məclisin Sədri binada tikinti işlərinin bu ilin oktyabr ayına qədər başa çatdırılması barədə müvafiq tapşırıqlar verib.

## Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün yaşayış binası tikilir

Ali Məclisin Sədri yaşayış binasında və istirahət parkında tikinti işlərinin keyfiyyətlə aparılması, istirahət parkı salınan ərazidə avtomobil yolunun genişləndirilməsi barədə tapşırıqlar verib.

## Elmar Məmmədyarov Dünya Səhiyyə Təşkilatının baş direktoru ilə görüşüb



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Azərbaycan ilə BMT-nin ixtisaslaşmış təşkilatı olan Dünya Səhiyyə Təşkilatı arasında əməkdaşlığı müsbət qiymətləndirib. O, Tedros Adhanom Qebreyesusun Dünya Səhiyyə Təşkilatının baş direktoru vəzifəsinə seçilməsindən sonra təşkilat qarşısında müəyyənləşdirdiyi "hamı üçün səhiyyə, qadın və uşaqların müdafiəsi, təşkilat daxili islahatlar" kimi prioritetlərin təqdirəlayiq olduğunu diqqətə çatdırıb.

Baş direktor Tedros Adhanom Qebreyesus Azərbaycanın səhiyyə sahəsində əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirib. O, rəhbərlik etdiyi təşkilat ilə Azərbaycan arasında əməkdaşlıq üçün geniş potensialın olduğunu qeyd edib, Azərbaycanın uğurlu təcrübəsinin digər üzv ölkələr üçün də maraqlı ola biləcəyini deyib. Baş direktor Azərbaycanın dövlət xətti ilə xarici tələbələr üçün təqaüd proqramları nəzərdə tutduğunu yüksək qiymətləndirib, təşkilat çərçivəsində də səhiyyə sahəsində təhsil üzrə təqaüdlərin ayrılması imkanlarına toxunub.

Görüşdə Dünya Səhiyyə Təşkilatında Azərbaycandan olan mütəxəssislərin çalışmaları və Dayanıqlı İnkişaf Məqsədlərinin milli səviyyədə icrası məsələlərinə dair fikir mübadiləsi aparılıb. Nazir Elmar Məmmədyarov Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi məqsədilə hökumət səviyyəsində əlaqələndirilmiş formada aparılan fəaliyyət barədə həmsöhbətinə məlumat verib.

## Bəhruz Quliyev: "Dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində vətəndaş amili dayanır"



"Prezident İlham Əliyevin yanında ölkənin enerji sistemində vəziyyətlə əlaqədar müşavirənin keçirilməsi göstərdi ki, Azərbaycanın təhlükəsizliyi ilə bağlı bütün məsələlər dövlət başçısının nəzarətindədir". SİA-nın xəbərinə görə, bunu "olaylar.az" saytına açıqlamasında "Səs" Media Qrupun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.

Siyasi ekspert bildirib ki, ölkə rəhbərinin Mingəçevir İstilik Elektrik Stansiyasında baş vermiş qəza ilə yaxından maraqlanması Azərbaycan Prezidentinin ölkədə baş verənlərə nə qədər həssaslıqla yanaşdığının əyani sübutudur. Bəhruz Quliyev qeyd edib ki, Prezident İlham Əliyevin tapşırığı ilə yaradılan Dövlət Komissiyası və bu komissiyanın üzərinə qoyulan vəzifələrin əsas məqsədi qəzanın baş vermə səbəblərini araşdırmaq və hadisədə məsuliyyətli olan şəxslərin cəzalandırılmasıdır: "Heç bir ölkə bu cür hadisələrdən sığortalanmayıb. Dünya təcrübəsində belə hadisələrin olduğunu görmək mümkündür. Hətta ABŞ-da, Avropa ölkələrində belə qəza səbəbindən elektrik enerjisi saatlarla dayandırılıb. Lakin ölkə başçısının ötən gün keçirilən müşavirədə də qeyd etdiyi kimi hazırda qarşıya qoyulan məqsəd qəzaya qədər həyata keçirilən işlərdə yanlışlıqların araşdırılması və burada günahkarların məsulyyətə cəlb olunmasıdır".

Siyasi ekspert söyləyib ki, Prezident İlham Əliyevin ötən gün müşavirədə vətəndaşların qəza nəticəsində nə qədər əziyyət çəkdiyini xüsusi vurğulaması, dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində vətəndaş amilinin dayandığını bir daha göstərmiş oldu: "Prezident hər zaman olduğu kimi bu məsələdə də vətəndaşların yanında oldu və onlara çətin sınaqda həmrəylik göstərdiklərinə görə təşəkkürünü bildirdi. Ölkə başçısının müşavirədə söylədiyi kimi, həqiqətən də dövlət qurumlarının və vətəndaşların həmrəylik göstərməsi nəticəsində Azərbaycan cəmiyyəti çətin sınaqdan şərəflə çıxa bildi".

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

6 iyul 2018-ci il

# Siyavuş Novruzov: "3-5 manat müqabilində xalqa müraciət etmək yersizdir"

## *Yeni Azərbaycan Partiyası İcra Katibinin müavini, millət vəkili Siyavuş Novruzovun SİA-ya müsahibəsi:*

***- Siyavuş müəllim ölkənin enerji sistemində vəziyyətlə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin yanında müşavirə keçirildi. Prezidentin müşavirədəki çıxışı və Mingəçevir İES-da baş verən qəzanın aradan qaldırılması istiqamətində verdiyi tapşırıqları necə qiymətləndirərdiniz?***



- Ümumiyyətlə, Azərbaycan Prezidenti İlham Əliyev ölkə rəhbəri olduğu dövrdən indiyədək bütün məsələlərə operativ və dərhal reaksiya verib. Əgər xatırlayırsınızsa, Prezident hələ 2004-cü ilin yanvarın 30-da Lənkəran şəhərinin Baloğlan Abbasov küçəsindəki 90 mənzilli yaşayış binasında baş vermiş qəza ilə əlaqədar dərhal ora səfər etdi. Ölkə başçısının Lənkəran Şəhər İcra Hakimiyyətində keçirdiyi operativ müşavirədə verdiyi tapşırığa uyğun olaraq, şəhərin yaşayış və ictimai binalarına texniki baxış keçirildi. Biz görürük ki, Prezident istənilən məsələ ilə bağlı dərhal ciddi reaksiya verir, orada olan problemləri aradan qaldırır və günahkarlar cəzalandırılır. Bu yönümdə də ölkə başçısı cənab İlham Əliyevin ötən gün keçirdiyi müşavirə ölkənin enerji sistemindəki vəziyyətlə bağlı idi. Bildiyiniz kimi, Mingəçevir İES-da baş verən qəzanın aradan qaldırılması istiqamətində dərhal Dövlət Komissiyası yaradılıb. Hazırda Komissiya öz işini aparır. Hesab edirəm ki, Dövlət Komissiyası öz məsələlərini araşdırıb yekunlaşdırmayana qədər hansısa məsələ barəsində fikir söyləmək o qədər də düzgün olmazdı. Bəzən görürsən ki, Mingəçevir İES-da baş vermiş qəzanı biri təxribat, digəri terror, hava şəraitinin isti olması kimi qələmə verir. Düşünürəm ki, Komissiya məsələləri araşdırıb lazımi məlumatları ölkə başçısına çatdırdıqdan sonra bu məsələlərə münasibət bildiriləcəkdir.

Qeyd etmək istərdim ki, son dövrlər Azərbaycanda energetika sektorunda çox böyük işlər görülüb və xeyli sayda modul tipli stansiyalar, İES-lər tikilib. Buna misal olaraq, Bakıda, Şirvanda, Şəmkirdə və s. olan İES-ləri göstərə bilərik. Mingəçevir İES daxil olmaqla demək olar ki, digər bölgələrdə modul tipli İES-lər fəaliyyət göstərir. Doğurdan da Azərbaycanda istehsal olunan enerjinin miqdarı ölkəmizin tələbatından qat-qat artıqdır. Cənab Prezident də mütəmadi olaraq öz çıxışlarında, fikirlərində, ilin yekunlarında bu məsələyə toxunub. Biz nəinki özümüzü elektrik enerjisi ilə təmin edirik, eləcə də digər ölkələrə enerjimizi ixrac edirik. Sadəcə olaraq bunları müasir standartlara cavab verəcək şəkildə qurmaq, bir-biri ilə əlaqələndirmək məsələsində görünür ki, hansısa problemlər yaşanıb. Azərbaycan artıq özü bu sahə ilə bağlı olan ləvazimatları istehsal edir. Xatırladım ki, hələ 2016-cı ildə Prezident İlham Əliyev Suraxanı rayonunda "ATEF Şirkətlər Qrupu"nun iri qabaritli transformatorlar zavodunun açılışında iştirak etdi, yüksək gərginlikli avadanlıqlar istehsalı zavodunun təməlini qoydu. Eləcə də Sumqayıt şəhərində çox böyük energetika sahəsinə adi olan istehsal müəssisələri fəaliyyət göstərir. Hətta deyərdim ki, nəinki Cənubi Qafqazda, heç post-sovet məkanında yüksək keyfiyyətli istehsala malik olan müəssisələr yoxdur. Yəni cənab Prezident bu sahəni çox gözəl bildiyi və hər zaman diqqət ayırdığı üçün ilk növbədə bu məsələlərə kifayət qədər vəsait ayırıb. Bir sözlə, istər qanunvericilik, istərsə də icra baxımından dövlət tərəfindən lazım olan bütün addımlar atılıb.

***- Bəzi müxalifət dairələri və onların təsiri altında olan saytlar Mingəçevir İES-də baş vermiş qəzadan və Gəncə şəhərində vəzifəli şəxsə qarşı həyat keçirilən silahlı basqından öz məqsədləri üçün istifadə etməyə cəhdlər göstərirlər. Bütün bunları müxalifət hansısa qüvvələrin sifarişi ilə həyata keçirdiyini demək olarmı?***

- Fürsətdən istifadə edib Azərbaycan xalqına təşəkkürümüzü, minnətdarlığımızı bildiririk ki, Mingəçevir İES-da baş verən qəzaya çox soyuqqanlıqla yanaşdılar. Amma xaricdə oturan və Azərbaycan xalqının taleyində heç bir müsbət rol oynamayan və yalnız faciələr üzərində özlərinin xoşbəxliyini qurmaq istəyən insanlar indi durub Azərbaycan xalqına müraciət edirlər. Birincisi, axı sən kimsən Azərbaycan xalqına müraciət edirsən? Ümumiyyətlə, sən ölkə xalqında hansı statusa maliksən? İkincisi, Azərbaycan xalqı çox gözəl görür ki, məlum qəzaya hamıdan öncə birinci münasibət bildirən və ən kəskin fikirləri ifadə edən də, məhz ölkə başçısı cənab İlham Əliyev oldu. Belə olan təqdirdə, sən xalq və Prezident arasında hansı rol oynamağa cəhd göstərirsən? Əgər sənin xalqına ürəyin yanırsa xaricdə deyil, əksinə xalqın içərisində ol. Yoxsa, xoşbəxt həyat seçərək xaricə üz tutmaq və bəzi dövlətlərin önünüzə atdığı 3-5 manat pul hesabına xalqa müraciət etmək yersizdir. Bu, sözün həqiqi mənasında, insanlar arasında gülünc doğurur. Adi bir fermer, vətəndaş, müəssisədə işləyən fəhlə sizdən qat-qat üstündür. Çünki o xalqının içərisindədir. Amma siz fərrarisiz.

***- Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı və digərləri ölkədə xoşagəlməz hadisə baş verəndə ondan öz siyasi məqsədləri üçün istifadə etməyə çalışırlar. Sizcə bu, onlara nə dərəcədə uğur gətirə bilər?***

- Təbii ki, onların bütün potensialları tükənib. Bunlar artıq xalq üçün hansısa alternativ layihə, xalqın, ölkənin gələcək fəaliyyəti ilə bağlı hansısa proqram və yaxud da digər təkliflər ortaya qoya bilmirlər. Çünki bunun üçün işləmək, çalışmaq və elm lazımdır. Ağac qırılıb yolda gedən bir nəfərə xəsarət yetirirsə, dərhal bunun günahını iqtidarda görürlər. Ümumiyyətlə, dünyanın bütün ölkələrində hadisələr baş verir. Hətta super dövlət olan ABŞ-da oxşar hadisələr, təbii fəlakətlər olur. Çində yağışlar nəticəsində bütün ölkəni sel basır və yüzlərlə insan həlak olur. Amma şükürlər olsun ki, Azərbaycanda bu günə qədər təbii fəalkət nəticəsində bir nəfər də olsun dünyasını dəyişməyib. Yaponiyada baş verən zəlzələ zamanı 37 min insan həlak oldu. Bunu hər bir vətəndaş, orada olan siyasi partiya, insan da təbii qarşılayır. Ümumiyyətlə, hələ təbiətə qarşı mübarizə metodlarının müəyyənləşməsi axıra qədər başa çatmayıb. Amma bizdəki müxalifət ətraf mühitdə baş verən hadisələri - Ayın tutulmasını, buludlu havada günəşin görünməməsini və s. siyasiləşdirib iqtidarın üzərinə atırlar. Bununla hansısa nüfuz qazanmaq və yaxud da özünə tərəfdaş qazanmaq mümkün deyil. Bu gün internet əsridir. Hər bir insan istənilən bir məsələyə, təklifə aydınlıq gətirmək üçün internetdə axtarış aparır və məlumatlanır. Bizim cəmiyyət çox savadlı bir cəmiyyətdir və hər deyilən fikri olduğu kimi qəbul etmir. Əvvəlcə onun təhlilini aparır və nəticə çıxarır.

***- Siyavuş müəllim, son günlər müxalifətin təsiri altında olan xaricdəki siyasiləşmiş QHT rəhbərləri arasında ciddi qarşıdurma yaşanır. Bunu ayrılan xarici maliyyə vəsaitlərini əldə etmək uğrunda aparılan mübarizə kimi dəyərləndirmək olarmı?***

- Ümumiyyətlə, bunların davası "yorğan" davasıdır. Əgər biz tarixə nəzər salsaq görərik ki, onlar vaxtilə "siyasi məhbus" oyunu üzərində bir-birini qırırdılar. Əslində, "siyasi məhbus" anlayışı yoxdur. Sadəcə olaraq onların valideynlərindən pul alıb müxtəlif oğurluq etmiş və yaxud da cinayət törətmiş şəxslərin adını siyahıya salmaqla onlara hansısa bəraət almaq, cəzasını yüngülləşdirməkdən ötrü dəridən-qabıqdan çıxırdılar. Bəzən görürsən ki, bir nəfər korrupsioner cinayət məsuliyyətinə cəlb olunub. Bu zaman hüquq-müdafiə təşkilatlarının, xaricdəki siyasiləşmiş QHT rəhbərlərinin yuxusu ərşə çəkilir ki, biz onun hüquqlarını müdafiə edəcəyik. Əgər sizlər korrupsiyaya qarşı mübarizə aparırsınızsa, o zaman dövlətin yanında olmalısınız. Çünki dövlətin həmin şəxsi korrupsiya üstündə məsuliyyətə cəlb edib. O korrupsiyadan mənimsəmək, müəyyən dividendlər, gəlirlər əldə etməkdən ötrü həmin şəxslər bir növ dəridən-qabıqdan çıxırlar. Biz mərhələli şəkildə onların bu fəaliyyətlərinin, davalarının şahidi olmuşuq. Biz vaxtilə Milli Məclisdə QHT-lər haqqında qanuna şəffaflığın təmin olunması üçün maddə daxil etdikdə bunların qışqırığı bütün Avropaya yayılmışdı. Niyə? Çünki bunların iç üzü açılacaqdı.

***- Rusiyalı politoloqların, ekspertlərin cəbhə xəttinin strateji Lələtəpə yüksəkliyinə, Cocuq Mərcanlıya səfər etmələri Ermənistana yönəlik bir mesaj kimi dəyərləndirilə bilər?***

- Azərbaycanın haqq işi qalib gəldikcə, bu kimi ünsürlər də müxtəlif yerlərdə ortaya çıxırlar. Artıq bütün dünya dövlətləri, hətta Ermənistanın müttəfiqləri də Azərbaycanın haqq işini görürlər. Yəni ərazi məsələsi haqq məsələsidir. Əgər bir ölkədə ərazi bütövlüyünün pozulması baş verirsə, digər ölkələrdə də bu özünün əksini tapacaq. Yəni heç bir dövlət president yaratmaq istəmir. Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş bu xarici siyasət kursu Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hər bir dövlətə münasibətdə qarşılıqlı hörmət və ehtiram var. Eyni zamanda həmin dövlətdən də özümüzə qarşı hörmət və ehtiramın tələbi buna bariz nümunədir. Bu mənada istənilən siyasətçi, dövlət xadimi, dövlət nümayəndəsi, xarici ölkənin səfiri dərk edir və görür ki, Azərbaycanla gələcəkdə uzunmüddətli münasibətlər qurmaq olar və lazımdır. Yoxsa, Sarkisyanın gedib Paşinyanın gəlməsi heç nəyi dəyişmir. Siyasət stabil olmalıdır. Əgər bir şeydə tam siyasət varsa, o daxildə və xaricdə də eyniyyət təşkil edir. Amma Ermənistanda, başqa-başqa ölkələrdə həm daxildə, həm də xaricdə siyasət dəyişir.

***- Son olaraq bu günlər Bolqarıstan Televiziyası Dağlıq Qrabağ həqiqətləri ilə bağlı Azərbaycanın haqlı mövqeyini müdafiə edən veriliş yayımlamasından sonra, bu ölkədəki ermənilər televiziyanın binasına hücümlar təşkil edib, jurnalistə qarşı mənəvi terror həyata keçiriblər. Niyə ermənilər beynəlxalq aləmin haqlı mövqeyindən ciddi təlaş keçirir?***

- Əvvəlcə qeyd edim ki, bu ilin aprelin 11-də Azərbaycanda keçirilən prezident seçkilərini müşahidə etmək üçün Avstraliyadan bir qrup ekspert gəlmişdi. Onlar seçkiləri müşahidə etdikdən sonra Azərbaycanda tam azad, ədalətli, demokratik seçkilərin keçirilməsi barədə bəyanat verdilər. Sonradan erməni diasporası bunların üzərinə düşərək şantaj etməyə başladılar. Təsəvvür edin Paşinyan qeyd edib ki, indiyədək Ermənistanda keçirilən bütün seçkilər saxtadır. Buna reaksiya verən yoxdur. Amma 3-4 nəfər Azərbaycanın haqq işini müdafiə edən kimi dərhal buna qarşı mübarizə aparırlar. Avropa Şurası, Avropa Parlamenti və s. digər struktur, qurumları da buna misal olaraq göstərə bilərik. Burada rəsmi bəyanatı kənara qoyub qeyri-rəsmi bəyanatı ortaya atırlar. Azərbaycanın inkişafını, sabitliyini gözügötürməməzlik təbii haldır. Onlar istəmirlər ki, güclü, demokratik, inkişaf etmiş müsəlman dövləti ortada olsun və öz siyasətini diqtə etsin. Paralel şəkildə bu müqayisələri aparmaq lazımdır. Məsələn, biz Avropa Şurasına daxil olanda şərt irəli sürdülər ki, Ermənistanla Azərbaycan hər ikisi bu quruma daxil olmalıdır, əks təqdirdə ədalətsizlik olar. Halbuki, Ermənistan heç Avropa Şurasına daxil olmağa hazır deyildi.

**Ceyhun Rasimoğlu**

## Hikmət Babaoğlu: "Bu həmrəyliyin əsasında Azərbaycan Prezidentinə və onun fəaliyyətinə olan inam dayanır"



"Heç bir ölkənin enerji sistemi baş verə biləcək qəzalardan tamamilə sığorta olunmayıbdır. Xüsusən, ekstremal vəziyyətdə belə halların baş verməsi mümkündür". Bunu Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Millət vəkili xatırladıb ki, Azərbaycanda Mingəçevir İstilik-Elektrik Stansiyasında baş vermiş qəza ilə bağlı iyulun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında müşavirə keçirildi. Onun sözlərinə görə, Cənab Prezident müşavirədə çox ciddi tapşırıqlar verdi. "Ancaq hadisənin baş verməsi bir sıra məsələləri üzə çıxardı. Bəlli oldu ki, Azərbaycanda dayanıqlı enerjinin bərpası ilə bağlı həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri də qonşu ölkələrlə enerji sektorunun intqrasiya edilməsi idi. Qəzanın nəticələrinin tezliklə və qısa müddətdə aradan qaldırılması, bir daha onu göstərdi ki, Azərbaycanda qonşu ölkələrlə enerji kommunikasiyaların inteqrasiya olunması vaxtında atılan strateji və uzaqgörən bir addim idi. Bu məsələ ilə bağlı Cənab Prezident qonşu Rusiya və Gürcüstana öz təşəkkürünü bildirdi. Əlbəttə ki, Cənab Prezident məsələlərin başvermə səbəblərinin araşdırılması ilə bağlı Dövlət Komissiyası yaratdı və bu komissiya, heç şübhəsiz, yekun nəticələrlə bağlı həm Azərbaycan Respublikasının Prezidentini, həm də cəmiyyəti məlumatlandıracaqdır", - deyə H.Babaoğlu qeyd edib.

Son 15 il ərzində ölkəmizdə 2500 meqavat gücündə yeni elektrik stansiyalarının tikildiyini bildirən millət vəkili vurğulayıb ki, hazırda Azərbaycanın enerji potensiali 6400 meqevata bərabərdir ki, bu da çox ciddi bir rəqəmdir. Bu potensial, bu imkanlar, nəinki istehlakçıların enerji tələbatını ödəməyə, eyni zamanda, elektrik enerjisi ixracı üçün də şərait yaradır: "Lakin çox təəssüf ki, enerji sektorunda çalışan bəzi məmurların və rəhbər şəxslərin yol verdiyi nöqsanlar nəticəsində yeni yaradılan və lokal enerji mənbələrinin fəaliyyətini koordinasiya etmək mümkün olmayıb. Beləliklə, sadəcə, bir blokda baş verən qəza bütün ölkənin elektrik techizatına mənfi təsir göstəribdir". Hikmət Babaoğlunun sözlərinə görə, Cənab Prezident müşavirədə bu məsələyə də diqqət çəkərək, bildirdi ki, bunun səbəbləri aydınlaşdırılmalıdır və bu vaxta qədər yol verilmiş nöqsanlar aradan qaldırılmalıdır ki, gələcəkdə bir daha Azərbaycanda bu cür qəzalar baş verməsin. "Eneji sektoru mürəkkəb bir sektordur. Ayrı-ayrı enerji istehsal edən mənbələrin fəaliyyətinin koordinasiya olunması üçün də yeni planların və layihələrin hazırlanması bu gün aktualdır. Cənab Prezident qeyd etdi ki, Bakıda, Sumqayıtda, Şirvanda, Astarada, Xaçmazda, Şəkidə və s. rayon və bölgələrdə elektrik stansiyaları yaradılmışdır. Amma bunların fəaliyyəti arasında, görünür, koordinasiya düzgün müəyyənləşdirilmədiyinə görə Mingəçevirdəki İstilik-Elektrik Stansiyasına alternativ ola biləcək və yaxud orada fəsad baş verən zaman ölkənin enerji böhranının qarşısını ala biləcək bu yardımçı təsərrüfatların istismarının düzgün təşkil olunmaması bu cür fəsadlara gətirib çıxarmışdır. Əslində, bu hadisə onu göstərdi ki, fövqəladə vəziyyətdə Azərbaycan xalqı soyuqqanlı davranmağı, mürəkkəb şəraitdə cəmiyyət üzvləri bir-birinə dəstək göstrməyi bacarır. Nümayiş etdirilən bu mövqe Azərbaycan vətəndaşlarının həmrəyliyinin bir nümunəsi idi. Cənab Prezident müşavirədə Azərbaycan cəmiyyətinin bu davranışlarını yüksək qiymətləndirərək, qeyd etdi ki, Azərbaycan cəmiyyəti yetkin cəmiyyətdir və baş verənləri anlayışla qarşılamağı bacarır".

Millət vəkili vurğulayıb ki, doğurdan da, bu gün, sözün əsl mənasında, Azərbaycanda vətəndaş həmrəyliyi var. O bildirib ki, bu həmrəyliyin əsasında da Azərbaycan Prezidentinə və Onun fəaliyyətinə olan inam dayanır. Çünki Azərbaycan vətəndaşları bilirlər ki, Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunması üçün uzun illərdir ardıcıl məqsədyönlü siyasət həyata kecirilir və bu siyasət Azərbaycanda dayanıqlı enerji təchizatını təmin edir. Cənab Prezidentin də, qeyd etdiyi kimi, Azərbaycan cəmiyyəti bu çətin sınaqdan şərəflə çıxa bilmişdir. Azərbaycanın bütün dövlət orqanları, xüsusilə də, Fövqəladə Hallar Nazirliyi, daxili işlər orqanları, Bakı Nəqliyyat Agentliyinin birgə və koordinasiyalı fəaliyyəti sayəsində həm ölkəmizdə birinci dərəcəli strateji obyektlərin qorunması, həm ictimai nəqliyyatın tənzimlənməsində heç bir problem yaşanmadı. Bu problem lokal səviyyədə qaldı və yaranmış qəzanın fəsadları ən qısa müddətdə aradan qaldırıldı. Bu da Azərbaycanda dövlət qurumlarının nə qədər effektiv və koordinasiyalı fəaliyyət göstərməsinin bir nümunəsidir. "Bu, bir növ həm də Azərbaycanda elektrik enerjisi sisteminin test olunması idi. Qəza nəticəsində mümkün və mövcud olan boşluqlar üzə çıxmışdır. Bunların aradan qaldırılması ilə bağlı Cənab Prezident müşavirədə qeyd etdi ki, bütün strateji obyektlər mobil elektrik generatorları ilə təmin edilsin ki, gələcəkdə belə hallar baş verərsə, birinci dərəcəli strateji obyektlərin mühafizəsi daima diqqət mərkəzində saxlanılsın. Eyni zamanda, ölkəmizin enerji təchizatı sistemi xarici auditorlar tərəfindən qiymətləndirilsin və problemlər həll edilsin. Bütün bunlar, sübhəsiz ki, enerji sektorumuzun sağlamlaşdırılmasına xidmət edəcək və gələcəkdə bənzər problemlərin baş verə bilmə ehtimalının qarşısını alacaq", - deyə Hikmət Babaoğlu qeyd edib.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Lənkəranda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyulun 5-də Lənkəranda Astara, Lerik və Lənkəran rayonlarının sakinlərini qəbul edib. Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Möhübbət Babayev Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində baş tutan qəbulda vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər. Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

## Vüqar Rəhimzadə: "Dövlətimiz və cəmiyyətimiz bu çətin sınaqdan üzüağ və şərəflə çıxdı"



"Dünyada elə bir dövlət yoxdur ki, təbii fəlakətlərdən və hansısa qəzalardan sığortalansın. Biz zaman-zaman, hətta dünyanın inkişaf etmiş ölkələrində belə təbii fəlakətlərin, qəzaların baş verməsinin, bunun nəticəsində xeyli sayda insanın zərər çəkməsinin şahidi olmuşuq. Lakin bu məqamda əsas olan fəlakətlərin, qəzaların nəticələrinin tez bir zamanda aradan qaldırılması, dövlət orqanları ilə yanaşı, sadə vətəndaşların da həmrəylik nümayiş etdirərək, baş verənlərə daha dolğun və kamil şəkildə yanaşmalarıdır. Bir neçə gün öncə, Mingəçevirdəki İstilik-Elektrik Stansiyasında baş vermiş qəza nəticəsində ölkəmizin enerji təminatında yaranmış problemlərin tez bir zamanda aradan qaldırılması üçün Möhtərəm Prezidentimizin tapşırığı ilə Dövlət Komissiyası yaradıldı, aidiyyəti qurumlar səfərbər edildi. Bununla, baş verə biləcək daha böyük problemlərin qarşısı alındı, ölkənin enerji təminatı bərpa edildi." Bu fikirləri KİV-ə açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil", qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, iyulun 4-də Azərbaycan Respublikasının Prezidenti yanında ölkənin enerji sistemindəki vəziyyətlə bağlı keçirilən müşavirədə də bu məsələlər ciddi şəkildə müzakirə edildi, dövlətimizin başçısı xüsusi tapşırıqlar verdi: "Ölkəmizin başçısı müşavirədə Dövlət Komissiyasının qarşısında dayanan vəzifələri xatırlatdı və qəzanın səbəblərinin aşkar edilməsinin vacibliyini bildirdi. Qarşıda duran əsas vəzifələrdən biri də görüləcək tədbirlər haqqında təkliflər vermək və gələcəkdə belə qəzaların təkrarlanmaması üçün tədbirlər planı hazırlamaqdır. "Bu işlərdə günahı olan bütün insanlar müəyyən edilməlidir və onlar cəzalandırılmalıdır" deyən Möhtərəm Prezidentimiz baş vermiş hadisəyə xüsusi həssaslıqla yanaşır və daim nəzarət edir. Təbii ki, insanların da bu məsələyə münasibəti xüsusi olaraq vurğulanmalıdır. Son bir neçə gündə Fövqəladə Hallar Nazirliyi və daxili işlər orqanlarının gördükləri təcili və təxirəsalınmaz tədbirlərlə yanaşı, sadə insanlar da bu məsələ ilə bağlı böyük məsuliyyət, əsl vətəndaş həmrəyliyi göstərdilər. Bir sözlə, dövlətimiz və cəmiyyətimiz bu çətin sınaqdan üzüağ və şərəflə çıxdı".

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, bu hadisədən yenə də öz şəxsi maraqları, çirkin niyyətləri üçün istifadə etməyə çalışanlar da tapıldı: "Qeyd etdiyimiz kimi, son bir neçə gündə yaranan problemə Azərbaycan cəmiyyəti kifayət qədər dolğun, kamil reaksiya verdi və dövlət orqanları ilə birlikdə sadə insanlar da qəzanın nəticələrinin tez bir zamanda aradan qaldırılması üçün var qüvvəsi ilə çalışdı, hər kəs əlindən gələni etdi. Təəssüf ki, ölkə daxilindəki bəzi dağıdıcı müxalifət ünsürləri, eləcə də, xaricdə oturub milli maraqlarımızı baltalamaqla məşğul olan erməni xislətli "soydaşlarımız" baş verənlərdən yenə də hansısa formada öz xeyirləri üçün "yararlanmağa" çalışdılar. Onlar sosial şəbəkələr vasitəsilə insanlara kriminal xarakterli çağırışlar edərək, yenə çaşqınlıq yaratmağa, "sahiblərinin" sifarişlərini yerinə yetirməyə cəhd etdilər. Lakin unutdular ki, Azərbaycan cəmiyyəti 1991-1992-ci illərin cəmiyyəti deyil. Dövr dəyişib, insanlar bu cür yalanlara inanmırlar. Xaricdə oturub boş-boş danışmaqdan başqa işi-gücü olmayan bu ünsürlər, fürsət düşən kimi. Azərbaycanı gözdən salmağa çalışırlar. Bir insan öz vətəninə, millətinə qarşı bu qədərmi qərəzli olar?! Bu insanların bir adı var: satqın, xəyanətkar... Ancaq hər zaman olduğu kimi, yenə də onların qaranlıq arzuları ürəklərində qaldı. Vətəndən uzaqda ermənilərin və ermənipərəst dairələrin pulları ilə "bəslənən" bələlərinin yeri ancaq tarixin zibilliyidir."

## Azərbaycan və Türkiyə diaspor təşkilatları birgə fəaliyyət göstərəcək



"Azərbaycan və Türkiyə diaspor təşkilatları birgə fəaliyyət göstərmək barədə razılıq əldə edib". SİA-nın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov deyib.

Onun sözlərinə görə, bununla bağlı görüşlər keçirilib və razılıq əldə edilib: "Biz Türkiyə və Azərbaycan diasporlarının, xaricdə və digər ölkələrdə yaşayan təşkilatların birgə fəaliyyəti istiqamətində artıq razılığa gəlmişik. Bu gün Türkiyə və Azərbaycanda əmin-amanlıq var. Bu əmin-amanlığı qoruyub saxlamalıyıq. Bu baxımdan, istər Azərbaycanda yaşayan türk qardaş və bacılarımız, istərsə də Türkiyədə yaşayan azərbaycanlılar özlərini rahat hiss edirlər. Azərbaycanlılar orada bir çox sahələrdə böyük nailiyyətlərə imza atıblar".

## Rezidenturaya qəbul imtahanının 2-ci mərhələsi keçiriləcək



Rezidenturaya qəbul imtahanının 2-ci mərhələsi iyulun 8-də keçiriləcək. Dövlət İmtahan Mərkəzindən (DİM) Trend-ə verilən məlumata görə, buraxılış vərəqəsini çap etmək üçün https://www.e-gov.az/az/services/read/2516/0?tqdk_xdm=32linkinə daxil olmaq lazımdır.

Qeyd edək ki, namizəd imtahana gələrkən şəxsiyyətini təsdiq edən sənədin əslini və "İmtahana buraxılış vərəqəsi"ni mütləq gətirməlidir. Göstərilən sənədlərdən hər hansı biri olmazsa və ya sənədlər arasında uyğunsuzluq olarsa, namizəd imtahana buraxılmayacaq.s

## “Ermənistanın Rusiyanı qıcıqlandırması münaqişənin həllini tezləşdirə bilər”



“Müşahidələrə görə, son vaxtlar Ermənistanda Qərbə yaxınlaşma prosesləri gedir. Artıq Avropa İttifaqı ilə saziş də təsdiqləndi. Lakin bu proseslər Rusiyadan gizli şəkildə həyata keçirilir. Çünki Ermənistan anlayır ki, xarici siyasətlərini açıq şəkildə dəyişsələr, o zaman müəyyən problemlərlə üzləşəcəklər”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib.

Ermənistanın atdığı addımların Rusiya tərəfindən də müşahidə edildiyini deyən politoloq söyləyib ki, artıq Moskva onların icraçı taktikasını itirdiyini anlayır. Politoloq deyib ki, Paşinyanın ikili yanaşması Rusiyanı qıcıqlandırır: “Rusiya ekspertlərinin Azərbaycana, Cocuq Mərcanlıda Lələ Təpəyə səfər edərək, Ermənistana qarşı sərt ifadələr işlətməsi təsadüfi deyil. Azərbaycana səfər edən rusiyalı ekspertlər Kremlə yaxın siyasətçilər və onların fikirləri təkzib edilməyib. Bütün bunlar göstərir ki, Ermənistanın ikili siyasəti Rusiyanın ölkənin marağına uyğun deyil. Təbii ki, bundan sonra Rusiya diqqətlə vəziyyəti izləyəcək. Əgər Ermənistan açıq şəkildə Rusiyaya arxasını çöndərərsə, o zaman qonşu ölkə öz mövqeyində dayanmayıb siyasətində dəyişiklik edəcək”.

Ermənistanla Rusiya arasında münasibətlərin gərginləşməsində Azərbaycanın qazancı məsələsinə gəldikdə F. Sadıqov qeyd edib ki, siyasətdə daimi dost və düşmən yoxdur: “Azərbaycanla Rusiya arasında münasibətlər strateji əməkdaşlıq formasındadır ki, bu da bizi qane edir. Amma biz Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiyanın atdığı addımlardan tam razı ola bilmərik. Ermənistan hakimiyyətinin faktiki olaraq atdığı addımlar Rusiyanı Azərbaycana daha da yaxınlaşdırır. Rusiya anlayır ki, bu məsələdə müəyyən vasitələrlə Ermənistana təzyiq etmək olar. Bildiyiniz kimi son Naxçıvan hadisələri Paşinyan hakimiyyətə gəldikdən sonra baş verib. Bu da təsadüfi deyil. Aprel döyüşləri zamanı Rusiya təşvişə düşsə də, Naxçıvan hadisələrində heç bir mövqe bildirilmədi. Azərbaycan Naxçıvanda bir sıra ərazilərə nəzarəti ələ keçirib”.

## Sarkisyanın qardaşı oğlu ittiham olunur



Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın qardaşı oğlu Ayk Sarkisyan qəsdən adam öldürməyə cəhddə ittiham olunur. SİA Ermənistan KİV-nə istinadən xəbər verir ki, İstintaq Komitəsi 2007-ci il aprelin 1-də Yerevanda David Simnoyanın güllələnməsi olayını Aykla bağlayır. Dostunu güllələyən Ayk Sarkisyanın öz əmisinin köməyi ilə istintaqdan yayına bildiyi xəbər verilir.

## Avtomobil daşımaları sahəsində Azərbaycan ilə İran arasında Protokol imzalanıb



Tehranda Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında həyata keçirilən beynəlxalq avtomobil əlaqələri sahəsində Azərbaycan-İran Birgə Komissiyasının növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycanın nümayəndə heyətinə Dövlət Avtomobil Xidmətinin rəisi Həbib Həsənov İran nümayəndə heyətinə isə Nəqliyyat və Şəhərsalma Nazirliyinin idarə rəisi Reza Nəfizi rəhbərlik ediblər.

İclasda Azərbaycan ilə İran arasında beynəlxalq avtomobil daşımaları sahəsində mövcud vəziyyət, yük və sərnişin daşımaları zamanı avtodaşıyıcıların qarşılaşdıqları problemlər və onların həlli yolları, daşımaların inkişafı perspektivləri və digər aktual məsələlər müzakirə olunub. Tərəflər iki ölkə arasında həyata keçirilən beynəlxalq avtomobil daşımalarının hazırkı vəziyyətindən məmnunluq ifadə ediblər. İclasın sonunda tərəflər arasında əməkdaşlıq haqqında Protokol imzalanıb.

# Rusiyalı ekspertlərinin Azərbaycanı dəstəkləməsi ölkəmizin növbəti qələbəsidir

## *Rusiya Qafqaz siyasətində Azərbaycanı daha etibarlı tərəfdaş kimi dəyərləndirir*





***Rusiyalı politoloqların və ekspertlərin cəbhə xəttinin strateji Lələtəpə yüksəkliyinə, Cocuq Mərcanlıya səfər etmələri təsdiq edir ki, artıq erməni xəyanətləri, yalanları, işğalçılıq siyasəti layiq olduğu qiymətini almaqdadır. Rusiyanın bir sıra ekspertlərinin və azərbaycanlı deputatların iştirakı ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində “Azərbaycan - Rusiyanın Cənubi Qafqazdakı yeganə müttəfiqi” adlı konfransı isə Ermənistanın geopolitik cəhətdən darmadağın olunması deməkdir. Rusiyada ciddi söz və nüfuz sahibi olan siyasi və ictimai xadimlərin Lələtəpədə Azərbaycan əsgərləri ilə görüşmələri, əslində, Ermənistanın yeni hakimiyyətinə verilən çox ciddi mesajlardır.***

### Putinə yaxın şəxslərin Cocuq Mərcanlıya səfəri Ermənistanın hakimiyyətinə də, ictimaiyyətinə də ən ağır zərbədir

Bakıdakı möhtəşəm hərbi parad, Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri və bu təlimlərdən bir gün öncə, Rusiya ictimai rəyinə təsiri olan nüfuzlu xadimlərin, siyasətçilərin, Putinə yaxın şəxslərin Cocuq Mərcanlıya səfər etmələri və oradan birbaşa “Ermənistan Dağlıq Qarabağı və ətraf rayonları qeyd-şərtsiz azad etməlidir” çağırışları Ermənistanın hakimiyyətinə də, ictimaiyyətinə də ən ağır zərbə hesab edənlər haqlıdır. Çünki bu səfəri, səfər çərçivəsində keçirilən konfransı özlərinə qarşı Moskva-Bakı birliyi hesab edən ermənilər bunu yeni müharibə hazırlığı kimi dəyərləndirir və haqlı olaraq təşviş keçirirlər. Hətta “Armenianreport.com” saytı kimi erməni kütləvi informasi vasitələrindəki şərhlər bu təşvişi təsdiq edir. Dumanın deputatı Savelyevin “Dağlıq Qarabağ və ətrafındakı 7 rayon qeyd-şərtsiz Azərbaycana qaytarılmalıdır”, “Azərbaycan Rusiyanın strateji müttəfiqidir”, “Rusiya Qarabağı Azərbaycanın ərazisi hesab edir” və “hüquqi nöqteyi-nəzərdən Qarabağ Azərbaycan ərazisidir” fikirləri ermənilərı narahat etməyə də bilməzdi.

Konfransın gedişində və sonra rusiyalı ekspertlər kifayət qədər maraqlı açıqlamalarla çıxış ediblər ki, bu da birmənalı qarşılanmayıb. Məsələn, Rusiya Dövlət Dumasının komitə sədrinin müavini Dmitri Savelyevin “Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurası, Avropa Şurası və Avropa Parlamentinin qərarları, nəhayət, həyata keçirilməlidir” ifadəsinin qarşı tərəfdə rezonans doğurmaması mümkünsüzdür. Yaxud hakim “Vahid Rusiya” Partiyasından Dövlət Dumasının deputatı Aleksey Yezubovun, “Rusiya və Azərbaycan qardaş və müttəfiq ölkələrdir, biz burada birlikdə, bir yerdə, ittifaqda olmalıyıq” kimi fikirləri, həmçinin deputatın, “Putin, Sarkisyan və İlham Əliyev tərəfindən hazırlanmış yol xəritəsinə müvafiq olaraq, Ermənistan işğal edilmiş 5 rayonu Azərbaycana qaytarmalıdır və Putin bildirib ki, bu, Rusiyanın dəyişməz mövqeyidir” deməsi, əslində, ermənilərin yuxusunu ərşə çəkməyə də bilməz.

Rusiyalı ekspert, Beynəlxalq Avrasiya Hərəkatının rəhbəri Aleksadr Duqin isə təmas xəttinə səfər haqqında danışarkən qeyd edib ki, onların Qarabağa səfəri təsadüfi deyil və Rusiya Qarabağı Azərbaycanın tərkib hissəsi hesab edir. Duqin, həmçinin vurğulayıb ki, Qarabağdan azərbaycanlılar qovulduqdan sonra “DQR” heç vaxt legitim hesab oluna bilməz və sülhün yeganə rolu Ermənistanın indiki hökumətinin buna real yanaşaraq, razılaşmaya sadiq qalması ola bilər. Məhz bu mövqe Azərbaycan üçün çox dəyərlidir və bu gün Rusiyada bizim mənafelərimizi, haqlı olduğumuzu dilə gətirən ekspertlərin olması çox vacib məsələdir. Həmçinin, bu gün Rusiya kimi bölgədə söz sahibi olan bir dövlətdən olan ekspertlərin, siyasi və ictimai xadimlərin Azərbaycanın mənafelərini müdafiə etməsi ölkəmizin uğuru və düşmən üzərində növbəti qələbəsidir. Əlbəttə ki, bu qələbəni doğuran səbəb ölkəmizin siyasi-iqtisadi inkişafı və düzgün strateji inkişaf yoludur. Dolayısı ilə, Rusiya artıq qəbul etmək məcburiyyətindədir ki, Azərbaycan daha uğurlu tərəfdaş və müttəfiq olmağa layiq ölkədir. Ermənistanın isə hələ də Rusiyadan, ruslardan istifadə etmək, şəxsi mənafeləri üçün yararlanmaqdan başqa bir niyyəti yoxdur və bu gün Ermənistan Rusiya üçün yalnız əlavə qayğılar yaradan, artıq yükə çevrilmiş bir dövlətdir. Görünür, Rusiya çoxdan bezib ermənilərdən və bu erməni hiyləgərliyindən yaxa qurtarmaqda israrlıdır. Həm də Qafqazda inkişaf tendensiyasına sadiq, uğurlu strateji inkişaf yolu seçən, dünya dövlətləri arasında nüfuza, imicə malik Azərbaycan kimi bir dövlətlə müttəfiqliyə Rusiya daha maraqlıdır və Ermənistanın bununla barışmaqdan başqa çarəsi qalmır. Rusiyalı ekspertlərin açıqlamaları, əslində, bütün bu həqiqətlərin etirafı idi və bu baxımdan, onların Lələtəpə yüksəkliyinə, Cocuq Mərcanlıya səfər etmələri, konfrans keçirmələri, konfransda ölkəmizin mənafelərini müdafiə etmələri Azərbaycan üçün çox dəyərlidir.

### Rusiyalı politoloqların və ekspertlərin cəbhə xəttinə səfəri Rusiya mətbuatının da diqqət mərkəzindədir

Cocuq Mərcanlıdakı konfransa Rusiya KİV-i də diqqət çəkib və bunu İrəvana xəbərdarlıq mesajı kimi dəyərləndirib. “Rosbalt.ru” nəşri re-

# Rusiyalı ekspertlərinin Azərbaycanı dəstəkləməsi ölkəmizin növbəti qələbəsidir

## *Rusiya Qafqaz siyasətində Azərbaycanı daha etibarlı tərəfdaş kimi dəyərləndirir*

gionda qüvvələr balansının artıq açıq-aşkar Azərbaycanın xeyrinə dəyişdiyini də gizlətmir. Hətta Ermənistanın Rusiyadan "Su-30" SM qırıcıları almağa ümid etdiyini də qeyd edən nəşr ümumi məbləği 300 milyon dollar olan 12 qırıcının ödənişi üçün pulun haradan tapılacağını da istehza ilə vurğulayır. Həm də sual olunur ki, Rusiyadan "gülməli qiymət"ə verilən silahlar hesabına ayaqda duran Ermənistan qərbyönlü hakimiyyətin gəlişindən sonra yenə də ruslara ümud edirmi və Rusiyanın bu yaxşılığı bundan sonra da davam edəcəkmi? Əksinə, indi Rusiya, necə deyərlər, "cəza kimi", yaxud Paşinyanı və komandasını "tərbiyələndirmək" üçün ermənilərə silah verilməsi məsələsində "taym-aut" götürəcəyi daha inandırıcı görünür. Belə bir şəraitdə Azərbaycan tərəfinin hərbi təlimlərinin hərbi əməliyyatlara çevrilməsi tam reallıqdır və bu da Ermənistanın süqutu deməkdir. Belə görünür ki, ermənilərin özlərinin də söylədiyi kimi Kreml artıq "düyməyə" basıb, yəni qərar verib və Qərbyönlü baş nazir Nikol Paşinyan ayağını "qırmızı xəttdən"dən, yəni cızıqdan kənara qoyan kimi Bakı ilə müştərək plan işə düşüb.

Hərdən elə görünür ki, elə bil, Rusiya Nikol Paşinyana təzyiq rıçaqları üzərində işləyir və Rusiya hakimiyyətinə yaxın siyasi ekspertlərin Cocuq Mərcanlıya səfəri, sanki bir növ Yerevana Kreml mesajıdır. Uzun müddət işğalçı Ermənistanda Qarabağ klanının hakimiyyətdə olması, bu klanın ortaya qoyduğu sərt və aqressiv mövqe belə bir fikir formalaşdırmışdı ki, güya İrəvanda hakimiyyətə kənar qüvvələrin gəlməsi Ermənistanın mövqelərində bir qədər yumşalmaya səbəb olacaq. Amma belə olmadı və Ermənistan regionda hələ də əsas təhlükə mənbəyi olaraq qalmaqdadır. Ermənistanın getdikcə artan iqtisadi problemlərində, bu ölkədə sosial-iqtisadi problemlərin daha qabarıq şəkildə özünü büruzə verməsində erməni xalqı baiskar kimi İrəvanda hakimiyyətdə olan Qarabağ klanını görürdü və qurtuluş yolu olaraq heç bir siyasi təcrübəsi, ali təhsili belə olmayan Nikol Paşinyanı hakimiyyətə gətirməyi doğru hesab etdi. Lakin Paşinyanın baş nazir postunu zəbt etdiyi ilk günlərdən sərgilədiyi mövqe, ortaya qoyduğu münasibət erməni xalqına bu dəfə də yanıldığını göstərdi.

### Beli çantalı, başı şapkalı nümayişçi baş nazirin davranışları müharibə ehtimallarını artırır və ermənilər yağışdan çıxıb yağmura düşüblər

İndi ermənilər yağışdan çıxıb yağmura düşüblər və Paşinyanın da sərgilədiyi mövqe Qarabağ məsələsinin sülh yolu ilə həllini əngəlləyir və dolayısı ilə bu siyasətin də erməni xalqının başında çatlayacağı şübhə doğura bilməz. Elə siyasi ekspertlər də, məhz bu qənaətdədir və onların səsləndirdiyi ifadələr, əslində, bütün Ermənistana açıq-aşkar bir mesajdır ki, ermənilər özləri də bunun fərqindədirlər. Fərqindədirlər ki, hakimiyyətə gətirdikləri beli çantalı, başı şapkalı nümayişçinin bir baş nazir kimi davranışları Qarabağda müharibə ehtimallarını bir qədər də artırır. Ermənistanın özündə də bunu artıq dərk etməyə başlayıblar ki, Azərbaycan Ordusunun 100 illiyi ilə bağlı keçirilən möhtəşəm parad, eləcə də iyulun 2-dən Azərbaycan Silahlı Qüvvələrinin genişmiqyaslı hərbi təlimlərə başlaması Qarabağ cəbhəsində yeni bir müharibəyə zəmin yaradır və artıq İrəvanda belə bir xof yaranıb.

Azərbaycanın artan hərbi təlimləri, buna qarşılıq olaraq isə İrəvanın ortaya qoyduğu şərt, yaxud aqressiv mövqe hərbi əməliyyatların qaçılmaz variant kimi gündəmə gələcəyinə artıq ekspertləri də əmin edib. Qərbyönlü təcrübəsiz Paşinyan hakimiyyəti öz auditoriyasına hesablanmış mövqeyi və davranışları ilə müharibə ehtimalını hələ də gündəmə daşımaqdadır. Nikol Paşinyanın və onun hakimiyyətinin sərt ritorikasına qarşı Naxçıvan istiqamətində aparılan hərbi əməliyyatlar deyilənləri təsdiq edir və ordumuzun tutarlı cavabı ən layiqli mesajdır. Baş nazir Nikolun hazırkı siyasi kursu regionda ümumi təhlükəsizliyi təhdid edir və onun erməni ordusuna müdafiə və döyüş hazırlığı əmri verməsi daxili siyasi gərginliyi artırmaqla özünün vəd etdiyi islahatlardan yayınması kimi görünür.

### Ermənistan ictimaiyyəti əmindir ki, qərbyönümlü baş nazirın səfeh addımları Moskvanın Bakı ilə müştərək planını reallaşdırır

Ermənistanın sosial şəbəkələrində də bu məsələ müzakirə mövzusuna çevrilib və sosial şəbəkə istifadəçiləri düşünürlər ki, Kreml Gürcüstan və Ukrayna kimi Ermənistana qarşı da nəsə hazırlayır. Hətta yazırlar ki, bu, əvvəl də aydın idi, ancaq indi plan heç gizlədilmir də. Ermənistanın sosial şəbəkə istifadəçiləri Cocuq Mərcanlıya Putinin bir dəstə sözçüsünün göndərməsini bunun təsdiqi hesab edirlər.

Həqiqətən də, görünür, Kreml artıq ermənilərin nazı ilə oynamaq fikrində deyil. Ermənistan ictimaiyyəti qəti olaraq əmindir ki, qərbyönümlü baş nazir Nikol Paşinyanın Rusiyaya qarşı səfeh addımları davam edərsə, Moskvanın Bakı ilə müştərək planı reallaşacaq. Bu isə hər zaman Rusiyaya güvənən və arxalanan Ermənistan üçün sonun başlanğıcı deməkdir. Daha doğrusu, ruslarla münasibətlərin pozulması və Azərbaycanla Rusiyanın müttəfiqliyi böyük Ermənistan xülyasında olanların, nəinki xülyasının, hətta bir dövlət olaraq, onların özlərinin sonu deməkdir.

Hadisələri təhlil edəndə, açıq-aydın görünür ki, son illər Rusiyanın Qafqaz siyasətində köklü dəyişikliklər və ciddi irəliləyişlər müşahidə olunur. Həmişə Rusiya-Qafqaz, Rusiya-Türkiyə münasibətlərində diktəedici gücə malik erməni əsilli və yönümlü siyasətçilər tədricən mövqelərini itirirlər. Məhz rusiyalı siyasətçilərin bəyanatlarını Bakıda deyil, birbaşa Cocuq Mərcanlıda verməleri belə göstərir ki, Rusiya Qafqaz siyasətində Ermənistandan, hələlik, birmənalı şəkildə üz döndərməsə də, onlar hazırda hesaba alınmır və Azərbaycan daha etibarlı tərəfdaş kimi dəyərləndirilir.

Rusiyalı politoloqların və ekspertlərin Lələtəpə yüksəkliyinə, Cocuq Mərcanlıya səfər etmələri, konfrans keçirmələri və bu konfransda Azərbaycanın xeyrinə səsləndirdikləri fikirlər, bir daha təsdiq etdi ki, Azərbaycan və Rusiya mürəkkəb məsələlərin həllində maneəsiz və çətinlik çəkmədən səylərini birləşdirmək iqtidarındadırlar. Nəinki səylərini birləşdirmək iqtidarındadırlar, hətta bu gün proseslər onu göstərir ki, rəsmi Bakı ilə yanaşı, Moskva da Qafqazda olan münaqişənin həllində maraqlıdır. Hətta Rusiyanın digərlərindən daha çox bölgədə, məhz Azərbaycana marağı da inkar edilə bilməz. Təbii ki, bu, ölkəmizin son illər iqtisadi inkişafı, hər sahədə inkişaf dinamikası, uğurlu strateji siyasəti və mövqeyindən irəli gəlir. Bir sözlə, regionda söz sahibi olan Rusiya kimi bir dövlətin Azərbaycanın mövqeyini dəstəkləməsi də ölkəmizin uğurudur. Daha doğrusu, bu, yeni rusiyalı ekspertlərin Azərbaycanın mövqelərini dəstəkləmələri, ölkəmizin haqlı olduğunu bildirmələri Azərbaycanın işğalçı dövlət üzərində növbəti dəfə qələbəsidir.

***İnam İMRANOĞLU***

## Rasim Musabəyov: "Paşinyan başından böyük işlər görə bilməz"



"Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyanın Federal Təhlükəsizlik Xidməti (FTX) əməkdaşlarını ölkədən çıxarmağa, Ermənistan-Türkiyə sərhəddinə nəzarəti rus qoşunlarının əlindən almağa hazırlaşmasına reallığı əks etdirmir". Bunu SİA-ya açıqlamasında politoloq Rasim Musabəyov deyib. Onun sözlərinə görə, Paşinyan başından böyük işlər görə bilməz: "Onun buna heç cür cəsarəti çatmaz. Hesab etmirəm ki, Ermənistandakı parlament seçkiləri ərəfəsində onun hansısa ağır kompromisə getmək imkanı olsun. Əgər o hakimiyyətini möhkəmləndirərsə sonrakı proseslər bunu ortaya çıxaracaq".

Rusiyalı politoloqların, ekspertlərin cəbhə xəttinin strateji Lələtəpə yüksəkliyinə, Cocuq Mərcanlıya səfər etmələri məsələsinə də toxunan politoloq deyib ki, bu adi haldır: "Onlar dəfələrlə Dağlıq Qarabağa da səfər ediblər. Rusiyanın rəsmi mövqeyini rusiyalı politoloqlar, ekspertlər izah etmirlər. Amma hər bir halda bu səfər ermənilərə təbliğat, informasiya müharibəsi baxımından zərbədir. Lakin hələ demək olmaz ki, Rusiya Ermənistandan əlini çəkib. Bu şişirdilmiş məlumat olar". Paşinyanın Qərbə meyilliyinə gəlincə deyə bilərəm ki, Ermənistan elə əvvəllərdə Qərbə meyilli olublar: "Onlar hər yerdən özləri üçün qazanc axtarmağa öyrəşiblər. Onlar nə Qərbin, nə də Rusiyanın ətəyini buraxmaq istəmir. Sadəcə olaraq onlar indi görürlər ki, Rusiya təklənib və zəifləyib. Buna görə də Qərbə meyillilik nümayiş etdirirlər".

## DGK: İdxal olunan bütün növ spirtli içkilər gömrük nəzarətindən keçirilir



Mövsümi günlərdə zəhərlənmə riskinin artması əhalini narahat edən əsas problemlərdəndir. O cümlədən, ölkəyə saxta və ya mənşəyi məlum olmayan spirtli içkilərin idxal olunması ilə bağlı məsələlər ictimai maraq kəsb edir.

Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bütün növ spirtli içkilər qanunvericilikdə nəzərdə tutulmuş qaydada gömrük nəzarətindən keçirilir və gömrük rəsmiləşdirilməsi üçün lazım olan sənədlər qanunvericiliyin tələblərinə tam cavab verdikdən sonra respublikamıza idxal olunur. Əgər məhsulun keyfiyyətinə dair şübhə yaranarsa, Mərkəzi Gömrük Ekspertizası İdarəsində həmin məhsul dərhal yoxlanılır. Dövlət Gömrük Komitəsi Aksiz Baş Gömrük İdarəsinin Səhiyyə Nazirliyinin Kliniki Tibbi Mərkəzinə rəsmi sorğusuna cavab olaraq Mərkəzdən bildirilib ki, Kliniki Tibbi Mərkəzin toksikologiya şöbəsində 2018-ci ilin ötən dövrü ərzində idxal olunan spirtli içkilərlə əlaqədar kimyəvi zəhərlənmə və ölüm hadisələri qeydə alınmayıb.

## Tanzaniyada bloggerlərdən vergi tutulur



Onlayn biznesin, eləcə də sosial şəbəkələrin vergiyə cəlb edilməsi ilə bağlı dünyada münasibətlər hələ tam formalaşmayıb və bu sahədə axtarışlar davam edir. AZƏRTAC vergiler.az saytına istinadla bildirir ki, atılan bəzi addımlar təəccüb doğurur. Belə ki, Tanzaniyada öz onlayn bloqunu yaratmaq istəyənlər büdcəyə 900 dollar məbləğində lisenziya yığımı ödəməlidirlər.

Yeni qüvvəyə minmiş qanuna əsasən, bloq yaratmaq məqsədilə ərizə vermək üçün 44, ilkin lisenziya üçün 442, illik yığım kimi isə 442 ABŞ dolları məbləğində vəsait ödənilməlidir. Adambaşına düşən gəlirin 900 dollar olduğu, əhalisinin hər beş nəfərindən birinin yoxsulluq həddində yaşadığı bir ölkə üçün bu, təbii ki, böyük məbləğdir.

# Ölkəmizdəki tibb müəssisələri Avropa standartlarına uyğun təmin olunub



Dünən Səhiyyə Nazirliyində Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesusla görüş keçirilib. Görüşdə Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycanın Milli Əlaqələndirmə Şurasının üzvləri, habelə, beynəlxalq təşkilatların nümayəndələri də iştirak ediblər.

Görüşdə çıxış edən səhiyyə naziri Oqtay Şirəliyev son illər ərzində ölkəmizdə səhiyyə sahəsində əldə olunmuş nailiyyətlərdən danışıb. Bildirib ki, müstəqilliyimizin ilk illərində ölkədə vəziyyət, o cümlədən, səhiyyə sahəsi acınacaqlı durumda idi. Belə olan halda, Ümummilli Lider Heydər Əliyevin, bütün sahələrə olduğu kimi, səhiyyə sahəsinə də ayırdığı diqqətin nəticəsi olaraq, bu sektora ayrılan vəsaitlərin həcmi ilbəil artırılırdı. Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti Cənab İlham Əliyevin səhiyyəyə diqqət və qayğısının nəticəsidir ki, hazırda ölkədə 600-dən artıq tibb müəssisəsi tam təmir olunub və ya yenidən tikilərək əhalinin istifadəsinə verilib. Nazir istifadəyə verilən tibb müəssisələrinin hər birinin Avropa standartlarına uyğun bütün lazımi tibbi avadanlıqlarla təmin olunduğunu və kadr potensialının gücləndirildiyini bildirib.

Ölkədə infeksion xəstəliklərin aradan qaldırılması məqsədi ilə görülən işlərə nəzər salan səhiyyə naziri 1990-cı ildən sonra malyariyaya görə olan vəziyyəti xatırladıb. Bildirib ki, o zamanlar vəziyyət çox sürətlə pisləşməyə başlamışdır. Baş vermiş epidemiya 1996-cı ildə ən yüksək səviyyəyə çatmışdır: "Genişmiqyaslı əks-epidemik tədbirlərin aparılmasının nəticəsində malyariyaya görə epidemioloji vəziyyət nəzərəçarpacaq dərəcədə yaxşılaşaraq, 2010-cu ildə cəmi 50 hadisə qeydə alınmışdır. Bu gün isə beynəlxalq təşkilatların da dəstəyi ilə ölkəmizdə malyariyanın eliminasiyasına nail olunmuşur. Ölkəmizdə göy öskürək və digər parazitar xəstəliklərə də artıq rast gəlinmir".

Sonra O.Şirəliyev hazırda bütün diqqətin qeyri-infeksion xəstəliklərin müalicəsinə, bu sahədə yeniliklərin tətbiqinə yönəldiyini bildirib. Vurğulayıb ki, ölkəmizdə açıq ürək əməliyyatları, uşaq kardiocərrahiyəsi, ilikköçürülmə əməliyyatı, transplantologiya və s. ən ağır icra olunan əməliyyatlar aparılır.

Ölkə ərazisində İcbari Tibbi Sığortanın tətbiqindən, vətəndaşların və uşaqların icbari dispanzerizasiyasından danışan səhiyyə naziri bunları, görülən işlərin bir qismi olduğunu nəzərə çatdırıb.

Öz növbəsində, səmimi qarşılanmaya görə minnətdarlıq edən ÜST-in baş direktoru Tedros Adhanom Qebreyesus səfərinin ölkə müstəqilliyimizin 100 illik tarixi ilə ilə üst-üstə düşməsinə çox sevindiyini bildirib. O, ölkəmizdə dövlətin əksər istiqamətlərinin ana və uşaqların sağlamlığının qorunmasına, infeksion və qeyri-infeksion xəstəliklərin aradan qaldırılması və bir çox istiqamətlərdə hazırlanmış "Tədbirlər Planı"nın tətbiqinə yüksək qiymət verdiyini bildirib.

Qonaq ölkəmizdə İcbari Tibbi Sığortanın universal səhiyyə paketi formasında hazırlanması istiqamətində ÜST-in də xüsusi təkliflər vermək arzusunu nəzərə çatdırıb. Tedroz Adhanom üç pilot rayonda tətbiq edilən İcbari Tibbi Sığortanın gedişatı haqda məlumatlı olduğunu bildirib. O, sonralar Azərbaycanda tətbiq olunacaq İcbari Tibbi Sığorta modulunu digər dövlətlərin təcrübəsində istifadə edilməsini təklif edəcəyini qeyd edib.

*Zümrüd BAYRAMOVA*

# Vergiödəmə mədəniyyətinin təmin edilməsi sahəsində ciddi addımlar atılacaq



Vergilər Nazirliyi tərəfindən vergiödəyicilərində mühasibat uçotunun düzgün aparılmasının bərpası və vergiödəmə mədəniyyətinin təmin edilməsi sahəsində ciddi addımların atılması nəzərdə tutulur.

Nazirliyin Media və Kommunikasiya Mərkəzindən AZƏRTAC-a bildirilib ki, bu barədə Vergilər Nazirliyinin İqtisadi təhlil və ekspertiza Departamentinin baş direktorunun müavini Elçin Ağakişiyev bildirib. Onun sözlərinə görə, sahibkarlıq subyektlərində uçot və hesabatlılığın qaydaya salınması təkcə vergi ödəmələri üçün deyil, ümumilikdə idarəedici qərarlar üçün də vacibdir: "Vergilər Nazirliyi vergiödəyiciləri ilə əməkdaşlığı elə qurmaq niyyətindədir ki, sahibkarlar şəffaf fəaliyyət göstərməyin iqtisadi cəhətdən səmərəli, əlverişli və sərfəli olduğunu başa düşsünlər".

# Deputat: "Qəzaya siyasi don geyindirənlər məqsədlərinə nail ola bilməyəcəklər"



"Təəssüf ki, radikal müxalifətin bəzi şəxsləri ölkədə baş verən bütün hadisələr kimi Mingəçevirdə baş verən qəzaya siyasi don geyindirmək, dövlət daxilində müəyyən çağırışlar etmək, düşünülməmiş fikirlər söyləməkdən yan keçmədilər. Ölkədə baş verənlərdən siyasi məqsədlər və dövlət əleyhinə istifadə etmək nə dərəcə ağıla sığandır?". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib. O bildirib ki, istənilən sahədə qəza baş verə bilər və heç kim bundan sığortalanmayıb: "Dünyanın aparıcı dövləti olan ABŞ-da il ərzində dəhşətli qəzaların baş verməsi ilə bağlı xəbərləri oxuyuruq. Həmçinin Avropa ölkələrində bu kimi hadisələrin baş verdiyini eşidirik. Lakin nədənsə müxalifətdən olan şəxslər ən xırda hadisələri, təbii fəlakəti və ya yol qəzasını belə siyasi məqsədlər üçün istifadə etməyə çalışır".

Deputat qeyd edib ki, baş verənlərlə bağlı əsası olmayan fikirlər irəli sürənlərin məqsədi cəmiyyətdə dövlətə qarşı inamsızlıq yaratmaq olsa da, buna heç bir zaman nail ola bilməyəcəklər: "Çünki, Azərbaycan dövləti və vətəndaşlarının təhlükəsizliyi kifayət qədər dayanıqlı və yüksək səviyyədə qorunur. Bu cür ucuz hərəkətlərin və iyrənc məqsədlər heç zaman reallaşmayacaq. Bildiyiniz kimi Prezident İlham Əliyev baş verənləri nəzarətə götürməsindən dərhal sonra təcili olaraq tədbirlər görülərək problem aradan qaldırıldı. Azərbaycanda bütün sahələr nəzarətdədir və bütün qurumlar öz işini lazımı səviyyədə həyata keçirir. Təbii ki bu qəzanın baş verməsində günahı olan şəxslər Prezidentin tapşırığı ilə cəzalanacaqlar".

# İnşaatda informasiya texnologiyalarının tətbiqi genişlənəcək



Dünən Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) bu qurumun və AMEA İdarəetmə Sistemləri İnstitutunun birgə təşkilatçılığı ilə "İnşaatda informasiya texnologiyaları və sistemlərinin tətbiqi imkanları və perspektivləri" mövzusunda beynəlxalq elmi-praktiki konfrans işə başlayıb.

Konfransda ölkənin müvafiq dövlət qurumları, ali təhsil müəssisələri və AMEA-nın elmi-tədqiqat institutlarının informasiya texnologiyaları sahəsi üzrə mütəxəssisləri, eləcə də, KİV nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə universitetin rektoru, professor Gülçöhrə Məmmədova açaraq, müasir dövr üçün aktual mövzuya həsr olunan beynəlxalq tədbirin əhəmiyyətindən söz açıb. O, İnformasiya-Kommunikasiya Texnologiyaları (İKT) əsrində yaşadığımız bir zamanda belə bir konfransın keçirilməsinin vacib olduğunu qeyd edib. XXI əsrin daha çox elm və texnikanın sürətli inkişafı, yeni texnologiyaların, elmi və praktiki innovasiyaların, İT texnologiyalarının həyatın bütün sahələrinə tətbiqi ilə səciyyələndiyini vurğulayan rektor İT texnologiyalarının inşaata tətbiqinin inşaat şirkətləri üçün yaradacağı üstünlüklər barədə məlumat verib. Rəhbərlik etdiyi ali məktəbdə informasiya texnologiyaları sahəsində məqsədyönlü tədbirlərin həyata keçirildiyini deyən G.Məmmədova universitetin nəzdində İnformasiya texnologiyaları və sistemləri kafedrasının bu inkişafa böyük töhfələr verdiyini diqqətə çatdırıb.

Konfransda Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri, professor Kamran İmanov çıxış edərək, insanın inkişafında ən mühüm amilin elm, təhsil və müasir biliklər olduğunu vurğulayıb. "İnformasiya-kommunikasiya texnologiyaları da daxil olmaqla, müasir texnologiyalardan bilik və informasiyanın ötürülməsi üçün istifadə olunması qlobal səviyyədə inkişafın əsas şərtlərindən sayılır", - deyə bildirən alim hazırda bütün ölkələrdə iqtisadi potensialın insan kapitalına çevrilməsi yolunda ardıcıl və sistemli tədbirlərin həyata keçirildiyini bildirib. Qeyd edib ki, gələcəkdə şəhər tikintisində smart texnologiyaların tətbiqinə daha çox üstünlük veriləcək. K.İmanov dövlət başçısının apardığı məqsədyönlü islahatlar nəticəsində ölkəmizin innovasiya yoluna qədəm qoyduğunu, bu yolda təmsil etdiyi agentliyin də müvafiq qurumlara, alim, müəllim və tələbələrə dəstək göstərməyə hazır olduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, AMEA-nın akademik-katibi, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev çıxış edərək, konfransın əhəmiyyətini önə çəkib, bu gün müasir inkişaf mərhələsində olan Azərbaycanın tikinti sektorunda böyük nailiyyətlərə imza atdığını, son onilliklər ərzində ölkəmizin bu sahədə dünya memarlıq xəzinəsinə mühüm töhfələr verdiyini diqqətə çatdırıblar.

AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, professor Misir Mərdanov "İnşaatda informasiya texnologiyaları və sistemlərinin tətbiqi imkanları və perspektivləri" mövzusunda çıxış edərək, konfransın keçirilməsini yüksək qiymətləndirib. Konfransın plenar iclasında AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun direktoru, AzMİU-nun İnformasiya texnologiyaları və sistemləri kafedrasının müdiri, akademik Telman Əliyev və özbəkistanlı alim İbrohiməli Normatovun məruzələri dinlənilib.

***ZÜMRÜD***

# Son bir ayda poçt vasitəsilə Dubaydan Azərbaycana 25 min mobil telefon göndərilib



Son bir ayda poçt vasitəsilə Dubaydan Azərbaycana 25 min mobil telefon göndərilib. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, komitə tərəfindən xarici ölkələrdən sifariş edilən mobil telefonlarla bağlı aparılan araşdırma nəticəsində mövcud gömrük və vergi qanunvericiliyinin ciddi şəkildə pozulması halları müəyyən edilib. Belə ki, asan yolla qazanc əldə etmək istəyən bəzi şəxslər xarici ölkələrdə təsis etdikləri onlayn ticarət portalları vasitəsilə Azərbaycan Respublikası vətəndaşlarının adına mobil telefonlar göndərir və ölkə ərazisinə gətirilən həmin telefonların daha sonra topdan və ya pərakəndə satışını təşkil edir.

Aparılan araşdırma zamanı o da müəyyən edilib ki, bir çox hallarda sənədlərdə adı çəkilən şəxslər faktiki olaraq sifarişlərdən xəbərsizdir. Üstəlik gömrük orqanlarına təqdim olunan bəyannamələrdəki rəqəmlərin sifarişçinin bank hesabındakı rəqəmlərdən dəfələrlə aşağı olduğu aşkar edilib ki, bunun da məqsədi gömrük vergi və rüsumlarından yayınmaqdır. Digər tərəfdən gömrük orqanına təqdim olunan bəyannamələrdə malların tərkibi də düzgün göstərilmir.

# Siyasiləşmiş QHT rəhbərləri bir-birini ifşa edirlər

*"Adıçəkilən bu şəxslər bir-birlərini qırsalar, yaxşıdır"*

***Avropada mühacir həyatı yaşayan Emin Hüseynov "Meydan" TV rəhbəri Emil Millini, Leyla Yunusu, Xədicə İsmayılı maliyyə vəsaitlərini mənimsəməkdə, satqınlıqda və xəyanətkarlıqda günahlandırıb. Sual yaranır: siyasiləşmiş QHT rəhbərləri arasında nə baş verir? Niyə onlar bir-birlərinə qarşı ən kəskin ittihamlarla çıxış edirlər? Söhbət etdiyimiz müsahiblərimiz tərəflərarası qarşıdurmanı onlara maddi və mənəvi dəstək göstərən xarici maraqlı dairələrin qızışdırdığını bildiriblər.***

**"Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev:**



- Əslində, burda qeyri-adi bir şey yoxdur. Siyasiləşmiş QHT-lərin hamısının maliyyə mənbələri eynidir. Hamısı bir mənbədən qidalanırlar. Buna görə də, zaman-zaman bir-birlərini maliyyə vəsaitləri ayıran mənbələrin gözündən salmağa və bununla da, onun payına sahib çıxmağa çalışırlar. Fikrimcə, Emin Hüseynovun ittihamlarının kökündə də, məhz bu amil dayanır. O, Avropada anti-Azərbaycan şəbəkəsinə maliyyə ayıran qurumlardan daha çox maliyyə almağa çalışır.

**İnsan Hüquqları XXI əsr Fondunun sədri Şahin Camalov:**



- Biz vətəndaş cəmiyyəti olaraq sözügedən şəxslər arasında bu cür qırğının başlayacağını çoxdan gözləyirdik. Çünki heç bir iş ilə məşğul olmayan insanların yardım adı altında və yaxud da ermənipərəst qüvvələrin aldıqları ianələr hesabına əldə etdikləri milyonlar və gəlirlərlə bağlı, təbii ki, nə zamansa aralarında bu cür mübahisələrin düşəcəyi gözlənilən bir hal idi. Bir sözlə, zəhmətsiz əldə olunan ayrı-ayrı qüvvələrin Azərbaycana qarşı istifadəyə verdiyi o məbləğlər, milyonlar ya həddindən artıq çoxdur - bölüşdürə bilmirlər, ya da kimlərsə o məbləğlərin böyük bir hissəsini əldə etmək istəyir və bu səbəbdən də, digərləri arasında belə qırğın gedir. Düşünürəm ki, adıçəkilən bu şəxslər bir-birlərini qırsalar, yaxşıdır. Çünki maliyyələr "Meydan" TV-yə və digər Azərbaycan əleyhinə fəaliyyət göstərən pozucu qurumlara ayrılır. Həmin çirkli pulların mühacir adı altında Avropada gizlənmiş ünsürlər də bəhrələnirlər. Ancaq başqa dövlətlərin maraqlarına xidmət edən insanlara ayrılan bu pullar, düşünürəm ki, elə onların sonunu da gətirməlidir.

**"Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov**

- E.Hüseynovun "Meydan" TV rəhbəri E.Millini, L.Yunusu, X.İsmayılı maliyyə vəsaitlərini mənimsəməkdə, satqınlıqda və xəyanətkarlıqda günahlandırmaqda bir məqsəd ola bilər. Bu məqsədlə kimlərsə adları çəkilən bu şəxslərə maliyyə vəsaiti verir, amma E.Hüseynova vermir. Belə olan halda,




E.Hüseynov da bu şəxslərə qarşı ittihamlar irəli sürür. Ümumiyyətlə, xaricdə bəzi qüvvələr var ki, ölkəmizdə nə isə bir xoşagəlməz vəziyyət yaratmaq üçün müxtəlif QHT-lərə maliyyə vəsaiti ayırırlar. Bu QHT-lər də həmin maliyyə vəsaitindən istifadə edərək, müxtəlif yollarla Azərbaycanda qarşıdurma yaratmağa, stabilliyi pozmağa yönəldilmiş addımlar atırlar. Bu şəxslərin hamısı da bir-biri ilə, ona görə rəqabətdədirlər. Hər biri çalışır ki, xarici donorun gözündə daha çox yüksəlsin. Bir sözlə, bütün bunların hamısı həmin o maliyyə vəsaitinin əldə olunması uğurunda mübarizədən irəli gəlir.

**GÜLYANƏ**

# Dünəndən başlayaraq tələbələrin köçürülməsinə başlanılıb

***Dünəndən etibarən, tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələri tələbələrinin, magistratura səviyyəsində təhsilalanların köçürülməsi üzrə elektron sənəd qəbuluna başlanılıb.***



Təhsil Nazirliyindən SİA-ya verilən məlumata görə, sənədlərin qəbulu transfer.edu.az portalı vasitəsi ilə həyata keçirilir. Bu proses iyulun 20-dək davam edəcək. Portala müraciət edən şəxslər köçürülmək istədiyi təhsil müəssisəsini seçmək imkanına malikdir. Bunun üçün təhsilalanlar tələb olunan məlumatları daxil etməklə, köçürülmə meyarlarına uyğun gəlib-gəlmədiyini müəyyən edə bilərlər. Təhsil Nazirliyi tərəfindən yaradılan transfer.edu.az portalı tələbələrin köçürülməsi prosesinin sadələşdirilməsinə və şəffaflığın təmin olunması məqsədinə xidmət edir.

Tələbələrin köçürülməsi Təhsil Nazirliyinin razılığı ilə qış və yay tətili dövründə həyata keçirilir. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında tələbənin topladığı bal qəbul olunduğu ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmamalıdır. Həmçinin tələbənin qəbul olunduğu və köçürülmək istədiyi ixtisaslar Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən olunmuş eyni ixtisas qrupu daxilində olmalıdır.

Qaydalara əsasən, xarici ölkələrin akkreditə olunmayan ali təhsil müəssisələri tələbələrinin və digər ölkələrdə qiyabi təhsil alanların köçürülməsinə icazə verilmir. Bununla yanaşı, tələbənin təhsil aldığı ali təhsil müəssisəsinin dünyanın ən yaxşı ali təhsil müəssisələrinin reytinq siyahısında olması da nəzərə alınan göstəricilər sırasındadır. Bir ali təhsil müəssisəsindən digərinə köçürülən, ixtisasını dəyişən və tələbələr sırasına bərpa olunan şəxslər (dövlət sifarişi əsasında təhsil alanların eyni ixtisas üzrə köçürülməsi istisna olmaqla) təhsillərini yalnız ödənişli əsaslarla davam etdirirlər.

# Ekspert: "Alternativ enerji mənbələrindən istifadə olunması hər hansı qəzanın təsirinin azaldılması üçün əsas prioritetlərdəndir"



***Alternativ enerji mənbələrindən istifadə olunması, strateji obyektlərin generatorlarla təmin edilməsi və əlavə tədbirlərin görülməsi gələcəkdə hər hansı bir qəzanın təsirinin azaldılması üçün əsas prioritetlərdəndir.***

Bu barədə AZƏRTAC-a iqtisadçı-ekspert Vüqar Bayramov deyib. Ekspert qeyd edib ki, bir neçə gün əvvəl Mingəçevirdəki İstilik Elektrik Stansiyasında baş vermiş qəza nəticəsində enerji təminatında yaranmış problemlərin qısa zamanda aradan qaldırılması üçün Prezident İlham Əliyevin tapşırığı ilə Dövlət Komissiyası yaradıldı. Dövlət Komissiyasının yaradılması baş vermiş hadisəyə çox çevik reaksiya verilməsi, eyni zamanda, təbii ki, sistemli və operativ işlərin həyata keçirilməsi baxımından vacibdir. Bu, ondan xəbər verir ki, belə hallar baş verərsə, proses ölkə Prezidenti tərəfindən birbaşa nəzarətə götürülür. Prezidentin nəzarətində olması da qəzanın nəticələrinin araşdırılması və fəsadlarının qısa vaxtda aradan qaldırılması baxımından ciddi bir baza formalaşdırır. Dövlət Komissiyası qəzanın başvermə səbəblərini araşdırmaqla yanaşı, gələcəkdə belə halların baş verməməsi üçün təkliflər planı hazırlayacaq. İyulun 4-də Azərbaycan Respublikasının Prezidenti yanında ölkənin enerji sistemindəki vəziyyətlə bağlı keçirilən müşavirədə qeyd olunduğu kimi, komissiya birmənalı şəkildə yalnız baş vermiş qəzanın səbəblərini qiymətləndirmək deyil, bu istiqamətdə fəaliyyətin təkmilləşdirilməsi, eyni zamanda, gələcəkdə belə halların baş verməsinin qarşısının alınması ilə bağlı təklifləri dövlətimizin başçısına təqdim edəcək ki, bu da məsələyə daha sistemli yanaşmanın nümayiş etdirilməsi baxımından önəmlidir.

Qəza həm cəmiyyətimizə, həm də iqtisadiyyatımıza təsirsiz ötüşmədi. Təqdirəlayiq haldır ki, qəzanın nəticələrini aradan qaldırmaq üçün bir sıra dövlət qurumları, xüsusilə nəqliyyat sektorunda, metroda baş verənlərlə bağlı Fövqəladə Hallar Nazirliyi, Bakı Nəqliyyat Agentliyi və digər qurumlar birgə fəaliyyət göstərərək hadisəyə operativ reaksiya verdilər və peşəkarlıq nümayiş etdirdilər.

Azərbaycanın enerji sektoruna kifayət qədər investisiya yatıran ölkələrdən olduğunu deyən V.Bayramov qeyd edib ki, təkcə 2017-ci ildə Azərbaycanda enerji sektoruna 1,9 milyard manatdan çox investisiya qoyulub. Bu məbləğin böyük bir qismi 2010 və 2014-cü illəri əhatə edib. Həmin dövrdə "Azərenerji"nin xətti ilə bu istiqamətdə 1,6 milyard manat investisiya yönəldilib ki, bu da əvvəlki məzənnə ilə 2 milyard dollardan artıq vəsaitdir. Bu sektor Azərbaycan üçün prioritet sektordur. İnvestisiyanın həcminin artırılması, strukturunun şaxələndirilməsi və xüsusən də alternativ mənbələrdən istifadə edilməsi enerji sahəsində yeni iqtisadi siyasətin əsas prioritetlərindən birinə çevriləcək. Ölkə başçısının qeyd etdiyi kimi, məhz növbəti dövrlərdə də investisiya qoyuluşları bir və ya az sayda mənbədən asılılığın aradan qaldırılmasına imkan verəcək ki, bu baxımdan da mövcud siyasət, investisiya qoyuluşları gələcəkdə belə halların minimumlaşdırılması və ölkənin belə hallardan sığortalanması üçün bir baza formalaşdıracaq.

Ekspert deyib ki, alternativ enerji mənbələrindən istifadə olunması, strateji obyektlərin generatorlarla təmin edilməsi və əlavə tədbirlərin görülməsi nəticəsində gələcəkdə hər hansı bir qəzanın təsirinin azaldılması üçün əsas prioritetlərdəndir. Dövlətimizin başçısı tədbirlər planının hazırlanması ilə bağlı göstəriş verdi. "Güman edirəm ki, bu, həm elektrik stansiyasında tam təftiş və auditin aparılmasına, eləcədə enerji sektorunda daha sistemli fəaliyyətin həyata keçirilməsinə imkan verəcək. Dövlətimizin başçısı bu sahədə peşəkarlığı ilə seçilən beynəlxalq qurumlar tərəfindən qiymətləndirilmənin aparılması ilə bağlı göstəriş verdi. Bu, enerji təhlükəsizliyinin formalaşması, enerji sektorunda fəaliyyətin müasir standarta uyğun qurulması baxımından vacibdir. Son müşavirə, Dövlət Komissiyasının yaradılması, dövlətimizin başçısı tərəfindən verilən tapşırıqlar gələcəkdə enerji sektorunda belə halların qarşısının alınması üçün baza formalaşdırır. Qəzaların minimumlaşdırılması, onların fəsadlarının iqtisadiyyata, cəmiyyətə, ümumi sistemə təsirlərinin azaldılması ilə bağlı tədbirlər həyata keçiriləcək ki, bu da növbəti dövrlərdə vətəndaşların fasiləsiz enerji ilə təminatı baxımından önəmlidir", - deyə Vüqar Bayramov bildirib.

# Rus bazasından imtina ermənilərin meydanda tək qaldıqlarının etirafıdır

***Bir dövlət olaraq Ermənistanın mövcudluğu, hətta Azərbaycan ərazilərini işğal altında saxlaya bilməsi belə öz gücünə mümkünsüzdür və həmişə olduğu kimi, hələ də bu işğalçı dövlət öz hamiləri sayəsində ayaqdadır. Amma son dövrlərin hadisələri erməniləri bütün bu imkanlardan, yəni sığınacaqlarından, dayaqlarından məhrum olmağa sürüklədi və istənilən anda xəyanət etməyə hazır olan ermənilər öz xislətlərini ortaya qoymaqla öz müqəddəratlarını sual altında qoydular. Məhz Rusiyanın timsalında Ermənistan öz hamilərindən məhrum oldu və indi işğalçılar onun da fərqindədirlər ki, ölkələrinə əvvəlki kimi maraq yoxdur. İrəvanın Moskvaya xəyanətkar bir mövqe sərgilədiyini müşahidə etmək çətin deyil. Avropa İttifaqı ilə imzalanan saziş bunun əyani sübutudur.***



Onsuz da Ermənistanda "məxməri inqlab"ın fonunda hər şey göz qabağında idi və açıq-aşkar görünürdü ki, ermənilər ruslara qarşı heç də meyilli deyildilər. Əksinə, buqələmun kimi hər an öz görünüşünü dəyişməkdə mahir olan ermənilərin Qərbə meyilli olduğu diqqətdən yayınacaq deyildi. Elə buna görə də, hakimiyyətə Rusiyanın deyil, Qərbin adamını gətirməkdə israrlı idilər. Buna nail oldular da. Hakimiyyət, idarəçilik təcrübəsi, siyasi savadı və qabiliyyəti olmasa da, beli çantalı nümayişçi Nikolu baş nazir postuna otuzdurdular və bu, özü də özlüyündə rusların altından stul çəkmək kimi bir təəssürat bağışladı. Paşinyan nə qədər rusların qarşısında erməni hiyləgərliyi ilə bundan sonra baş əysə də, artıq xəyanətkar simaları ortadadır və Rusiya heç də Ermənistan hakimiyyətinə, erməni xalqına inanmaq niyyətində ola bilməz. Çünki Qafqazda məskunlaşmalarından tutmuş, statuslarına qədər ermənilərin hər bir müqəddəratı rusların köməyi ilə reallaşdırılmışdı və bütün bunların fonunda indi ermənilərin göstərdikləri sima yalnız xəyanətin təcəssümü kimi dəyərləndirilə bilər.

İndi ABŞ-ın Rusiyaya tətbiq etməyə hazırlaşdığı yeni sanksiyalar fonunda Ermənistanda anti-Rusiya əhval-ruhesiyyəsinin daha sürətlə baş qaldırması erməni xəyanətkarlığının növbəti təzahürüdür və bunu da ruslar çox yaxşı başa düşürlər. Hətta iş o yerə çatıb ki, Ermənistan Rusiyanın 102-ci hərbi bazasının ləğv edilməsi məsələsini gündəmə gətirib və bu, artıq erməni həyasızlığının ekstremumu - böhran nöqtəsi hesab oluna bilər. Ermənistanı daim mühafizə edən rus hərbi bazasını ləğv etmək istəyi bir tərəfdən gülünc görünsə də, digər tərəfdən, çox maraq doğrur və hər kəs düşünməkdə haqlıdır ki, görəsən, erməniləri qoruyan hərbçilərdən özləri niyə imtina etmək niyyətindədirlər? Ermənilər rus bazasının onların təhlükəsizliyinə zəmanət verMədiyini səbəb kimi ortaya atırlar və görəsən, özlərinin bu təhlükəsizliyin təminatına inamının olmaması fonunda, heç olmasa dərk edirlərmi ki, əsas səbəb kimi ortaya atdıqları belə onların bu vaxta qədər ruslar tərəfindən mühafizə olunmasının, Rusiyanın hərbi dəstəyinin olmasının etirafıdır?

## Ermənilər ehtiyat edirlər ki, lazım olan məqamda Rusiya Ermənistanı Türkiyə və Azərbaycanın qucağına ata bilər

Məsələ ilə bağlı erməni siyasi şərhçi Aram Amatuni iddia edir ki, Rusiya lazım olan məqamda Ermənistanı Türkiyə və Azərbaycanın qucağına ata bilər və ermənilər də, məhz bundan ehtiyat edirlər. Əslində, ermənilərin ehtiyat etmələri başa düşüləndir və etdikləri nankorluq müqabilində başqa gözləntilər də ola bilməz. Doğrudur, bu vaxta qədər ruslar ermənilərdən, yaltaqlığı nəzərə almasaq, yalnız bu kimi xəyanətlər görüb və bir növ onların simasızlığı yenilik də deyil. Amma ermənilər özləri də başa düşürlər ki, bu dəfə ruslara elə bir xəyanət ediblər ki, onların dəstəyinə zərrə qədər bel bağlaya bilməzlər. Ola bilsin, bu etibarsızlıq etmələrinin zərrə qədər mənası yoxdur və ruslar Qafqazda öz mövqeləri xatirinə belə bir niyyətdə də deyillər. Amma ermənilər məsələyə öz rakurslarından baxırlar, öz arşınları ilə ölçürlər deyə güman etmək, ümid etmək kimi bir niyyətləri yoxdur və öz talelərini sual altında qoymaqdan çəkinirlər.

Erməni şərhçiləri Rusiyanın Azərbaycana silah satdığından, Türkiyə ilə birgə hərəkət etdiyindən narahatlıqlarını da gizlətmirlər və öz xislətlərindən çıxış edərək, düşünürlər ki, ən çətin məqamda Rusiya Ermənistanın arxasından çəkiləcəklər. Düşünürlər ki, əgər Ankara və Bakı Qarabağın azadlığı hərəkatına başlasa, Rusiya Ermənistanın arxasında olmayacaq və hətta qarşıdan belə çəkilərək Ermənistanı meydanda tək qoyacaq. Məhz bu baxımdan, rus bazasının təhlükəsizliyin zəmanəti olmasına şübhə ilə yanaşılır və 102-ci hərbi bazanın ləğv edilməsi, rus qoşunlarının Ermənistandan çıxarılması niyyəti güdülür.

## Ermənistanda anti-Rusiya əhvali-ruhiyyəsi rusların ürəyincə deyil və bunu ermənilərə bağışlaya bilmirlər

Rusiyalı ekspertlər isə tamam başqa fikirdədirlər və Ermənistan hökumətini təqsirli hesab edirlər. Rusiyalı ekspert Andrey Nikolayev hesab edir ki, əslində, Ermənistanla Avropa İttifaqı arasında çərçivə sazişi imzalandıqdan sonra bu ölkədə anti-Rusiya əhvali-ruhiyyəsi açıq şəkildə qızışıb. Əhalinin bu əhvali-ruhiyyəsi, sözsüz ki, rusların ürəyincə deyil və illər, onilliklər, hətta əsrlər boyu erməniləri öz himayəsində saxlayan ruslar özlərinə qarşı antipatiyanı həzm edə və bunu ermənilərə bağışlaya bilmirlər. Ekspertin sözlərinə görə, rəsmi dairələr bunun qarşısının alınması istiqamətində hansısa əməli addımlar atmır və məhz bu səbəbə Ermənistan hökuməti də təqsirlidir.

Doğrudur, ermənilərin rusların himayəsinə artıq ümidi qalmayıb və xəyanətləri fonunda Rusiyanın Ermənistanın arxasında durmayacağını yaxşı başa düşürlər və bunu etiraf etmələri belə deyilənləri təsdiq edir. Lakin rusiyalı ekspert Andrey Nikolayevin təbirincə desək, Azərbaycanın kifayət qədər güclü olması həqiqətini erməni cəmiyyəti də yaxşı bilir və bütün bunların fonunda rus bazasından imtina etmələri də çox gülünc səslənir. Çünki Ermənistan ictimaiyyəti çox yaxşı başa düşür ki, Rusiyanın dəstəyi olmadan onlar, nəinki işğal etdikləri əraziləri, hətta öz torpaqlarını belə mühafizə etmək iqtidarında deyillər. Ermənistan ordusunun indi hansı halda olduğu, əsgərlərin təminatının belə sıfır səviyyəsinə düşdüyü heç kim üçün sirr deyil və Azərbaycan Ordusu kimi qüdrətli ordu qarşısında dayana biləcəyi inandırıcı deyil. Sözsüz ki, Azərbaycanın hərbi qüdrəti erməniləri narahat etməyə bilməz və bilirlər ki, ordumuzun həmləsi qarşısında ən qısa zamanda sarsılacaqlar və bəlkə də, elə buna görə, başlarını itiriblər. Belə olan halda, işğalçıların rus bazasından imtina etmələri onların ən yaxın vaxtda məğlubiyyətindən xəbər verir. Rus bazasından imtina edən, öz hamilərinə belə etibar etməyən ermənilər bununla meydanda tək qaldıqlarını etiraf edirlər. Bir zaman güvəndikləri və arxa çevirdikləri Rusiyanın belə Azərbaycanın yanında olduğunu başa düşürlər. Azərbaycanın dinamik inkişafının fonunda hərbi qüdrətinin artmasından qorxularını da gizlətmirlər və hətta Rusiyanın müttəfiqliyi ilə bu qüdrətin daha da artmasından çox narahatdırlar. Məhz buna görə də, rus bazasının onları müdafiə edəcəyi özlərinə də inandırıcı görünmür və belə olan halda, Ermənistan cəmiyyəti çox yaxşı başa düşür ki, Azərbaycanın gözlədiyi qələbə günü uzaqda deyil.

***İnam HACIYEV***

# Ermənistan növbəti siyasi böhran ərəfəsində

*"Past" qəzeti: "Nikol Paşinyan prezident vəzifəsinə öz adamını təyin etmək istəyir"*

***Ermənistanda Nikol Paşinyan dönəmi başlayar-başlamaz, ölkə növbəti siyasi böhranla üz-üzə qalmaqdadır. Artıq ermənilərin ictimai-siyasi dairələrində, belə bir fikir formalaşmağa başlayıb ki, ölkənin prezidenti, sabiq prezident Serj Sarkisyanın adamı hesab edilən Armen Sarkisyan təmsil olunduğu postunda, konstitusiyada qeyd edildiyi kimi, yeddi il qala bilməyəcək. Bu barədə Ermənistanda dərc edilən "Past" qəzeti də yazır.***

## Paşinyan Serj Sarkisyan tərəfindən namizədliyi irəli sürülmüş və prezident postuna yiyələnmiş şəxsi həmin yerdə görmək istəmir



"Past" qəzetinin yazdığına görə, baş nazir Nikol Paşinyan həmin vəzifəyə də öz adamını təyin etməyi düşünür. "Baxmayaraq ki, o, (Paşinyan-red.) Armen Sarkisyanın Böyük Britaniya vətəndaşlığına hələ 2011-ci ildə son qoyduğunu və bu barədə sənədləri şəxsən gördüyünü desə də, S.Sarkisyan tərəfindən namizədliyi irəli sürülmüş və prezident postuna yiyələnmiş şəxsi həmin vəzifədə görmək istəmir"-deyə yazan erməni nəşrinə görə, parlamentdəki mənbə də bunu təsdiqləyib.

## Paşinyan maksimum şəkildə "sübutedici" motivizasiyalar tapmağa çalışacaq

SİTAT: "Bizim mənbəmizə görə, konstitusiya qanunları kifayət qədər məhdud olsa da, bu barədə danışıqlar aparılır. Belə ki, növbədənkənar parlament seçkilərindən sonra, Armen Sarkisyan istefaya getməli və növbəti prezident yeni tərkibli parlament tərəfindən seçilməlidir." "Past"a görə, sözügedən ssenari erməni ictimaiyyəti tərəfindən birmənalı qarşılanmayacaq və N.Paşinyan maksimum şəkildə "sübutedici" motivizasiyalar tapmağa çalışacaq. Fakt isə budur ki, N.Paşinyanın bir çox cəhdləri nəticəsiz qalmqdadır və bu reallıq özünü daha çox göstərməyə başlayıb. Ermənistanda keçmiş hakimiyyət üzvlərinin həbsləri və istintaqlara cəlb edilmələri təqdir olunsa da, baş nazirin ölkədə hakimiyyət formalaşdırmaq cəhdlərinin ciddi nəticələr vermədiyi də bildirilir. İndi də prezident A.Sarkisyanı öz postundan uzaqlaşdırmaq cəhdlərinin ictimailəşməsinin ardınca, xalqda bəzi suallar yaranmağa başlayıb. Paşinyan isə həmin sualları cavablandırmağa hələ də hazır olmadığını sərgiləyir.

***Rövşən NURƏDDİNOĞLU***

# Narkotik vasitənin ölkəyə gətirilməsi cəhdinin qarşısı alınıb

Narkotik vasitənin ölkəyə gətirilməsi cəhdinin qarşısı alınıb. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Astara Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olan əməliyyat məlumatına əsasən, İran İslam Respublikasından piyada yolla birlikdə gələn Azərbaycan Respublikasının iki vətəndaşı saxlanılıb.

İdarənin Sərnişin şöbəsində hər iki vətəndaşın üzərində şəxsi yoxlama zamanı onların daxili orqanlarının tibbi müayinədən keçirilməsi zərurəti yaranıb. Həmin şəxslər gömrük əməkdaşlarının müşayiəti ilə Astara Rayon Mərkəzi Xəstəxanasına aparılıb və tibbi müayinədən keçirilib. Nəticədə, saxlanılan vətəndaşlardan birinin düz bağırsağında iki ədəd bağlamada, xalis çəkisi 112,165 qram olan heroin, digərinin düz bağırsağında isə iki ədəd bağlamada, xalis çəkisi 109,380 qram olan heroin aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

# Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir

***Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən uğurlu inkişaf siyasəti nəticəsində, bu gün Azərbaycanda bütün sahələrdə olduğu kimi, gömrük işinin təşkili istiqamətində də mühüm nailiyyətlər əldə olunub. Ümummilli Lider Heydər Əliyev gömrük sahəsinin ölkə həyatındakı rolunu yüksək qiymətləndirərək, gömrük sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsini, bu xidmət sahəsinin beynəlxalq standartlara uyğunlaşdırılmasının vacibliyini vurğulayaraq bildirirdi ki, "Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir".***

Sirr deyil ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq müstəqilliyinin ilk illərində bütün sahələrdə tənəzzül dövrünü yaşayan Azərbaycan sürətli inkişaf yoluna qədəm qoyub və regionun lider dövlətinə çevrildi. Elə bütün sahələrdə olduğu kimi, gömrük işinin təşkili, beynəlxalq standartlara cavab verən müasir gömrük siyasətinin həyata keçirilməsi də Ulu Öndərin yüksək idarəçilik qabiliyyəti sayəsində mümkün olub. Məhz Onun diqqət və qayğısı nəticəsində gömrük orqanlarında həyata keçirilən əsaslı islahatlar, peşəkar kadrların hazırlanması, müasir tələblərə cavab verən maddi-texniki bazanın təşkili ölkəmizin gömrük xidmətinin beynəlxalq arenada nüfuzlu yer tutmasına şərait yaratdı.

Bu gün isə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə başladılan və Prezident İlham Əliyevin davam etdirdiyi işlər çərçivəsində aparılan genişmiqyaslı islahatlar, müasir tətbiqlər hesabına gömrük orqanları dinamik şəkildə inkişaf edərək, nəinki ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda, beynəlxalq ticarətin təhlükəsiz və sürətli şəkildə həyata keçirilməsində mühüm rol oynayan quruma çevrilib.

Etibarlı gömrük xidmətinin təşkili və bu sahənin dünya standartları səviyyəsinə çatdırılması üçün respublikamızda güclü qanunvericilik bazasının formalaşdırılması xüsusi əhəmiyyət kəsb edib. Bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin 2 avqust 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması prosesi ilə əlaqədar qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılması üzrə Tədbirlər Planı", Azərbaycan Respublikası və Avropa İttifaqı arasında imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq sazişinə uyğun olaraq "Yeni qonşuluq siyasəti" çərçivəsində 2006-ci ildə qəbul edilmiş "Azərbaycan-Avropa İttifaqı fəaliyyət Planı", xüsusilə də, Azərbaycan Prezidenti İlham Əliyevin 1 fevral 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət Proqramı" diqqətə çatdırılmalıdır. Eləcə də Azərbaycan Prezidentinin 11 noyabr 2008-ci il tarixli Fərmanına əsasən, Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiq edilməsində də məqsəd ölkədə gömrük sisteminin inkişafını sürətləndirmək, onun normativ-hüquqi və maddi-texniki təminatını yaxşılaşdırmaq və gömrük orqanlarının fəaliyyətini daha da təkmilləşdirmək olub.

Əlbəttə ki, gömrük işinin dünya standartları səviyyəsində qurulması üçün kompleks inkişafı nəzərdə tutan Gömrük Məcəlləsi haqqında da danışılmalıdır. Məhz Azərbaycan Respublikasının gömrük qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə qəbul edilmiş "Azərbaycan-Avropa İttifaqı Fəaliyyət Planı"nın "Azərbaycan gömrük xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi" ilə bağlı müddəalarının yerinə yetirilməsi, həmçinin "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyanın müddəalarının və Ümumdünya Gömrük Təşkilatının "Beynəlxalq Ticarətin Asanlaşdırılması və Təhlükəsizliyi Üzrə Çərçivə Standartları"nın milli gömrük qanunvericiliyində əks olunması üçün Dövlət Gömrük Komitəsində Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının birgə həyata keçirdiyi "Azərbaycan Respublikasında Gömrük Xidmətinin Təkmilləşdirilməsi" layihəsi çərçivəsində ölkəmizdə fəaliyyət göstərən beynəlxalq ekspertlər və DGK-də təşkil olunmuş işçi qrupu tərəfindən Azərbaycan Respublikasının yeni Gömrük Məcəlləsinin layihəsi hazırlanıb və qəbul edilib. Azərbaycan Gömrük Xidmətinin ən sonuncu Gömrük Məcəlləsi 2011-ci ildə qəbul edilib və 2012-ci ildə qüvvəyə minib.

Məcəllənin layihəsi hazırlanarkən Avropa İttifaqının Təkmilləşdirilmiş Gömrük Məcəlləsinin qabaqcıl normalarından, eləcə də Avropa İttifaqına üzv dövlətlər olan Estoniya, Latviya və Litva respublikalarının, eləcə də İsveç Krallığının gömrük işi sahəsində əldə etdikləri təcrübədən geniş istifadə edilib.

Bütövlükdə, yeni Gömrük Məcəlləsi gömrük sisteminin maddi-texniki bazasının daha da möhkəmləndirilməsinə, gömrük infrastrukturunun modernləşdirilməsinə, dövlət büdcəsinin gəlirlərinin artmasına, idxal-ixrac əməliyyatlarında müasir tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərinin daha geniş tətbiq olunmasına, Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzvolma prosesinin sürətlənməsinə, gömrük sistemində avtomatlaşdırılmış idarəetmənin və informasiya texnologiyalarının tam tətbiq edilməsinə, gömrük nəzarətinin həyata keçirilməsinin səmərəliliyinin artırılmasına, gömrük-tarif siyasətinin təkmilləşdirilməsinə və inkişaf etdirilməsinə, ölkənin iqtisadi, milli təhlükəsizliyinin möhkəmləndirilməsində və sosial-iqtisadi inkişafında gömrük sisteminin rolunun artırılmasına, gömrük işi sahəsində hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsinə, ölkənin sosial-iqtisadi inkişafında gömrük sisteminin rolunun artmasına, gömrük tənzimlənmə vasitələrinin beynəlxalq miqyasda qəbul edilən tənzimlənmə vasitələrinə uyğunlaşmasına, ticarət-iqtisadi münasibətlərdə idxal və ixrac əməliyyatlarının rəsmiləşdirilməsinin sadələşdirilməsinə əlverişli şərait yaradıb.

Son dövrlərdə isə idxal-ixrac əməliyyatlarının Vergilər Nazirliyi ilə birgə nizamlanması istiqamətində qanunvericiliyə edilən dəyişikliklər gömrük prosedurlarının sadələşdirilməsini, gömrük-buraxılışı məntəqələrindən sürətli keçidin təmin olunmasını təşkil edib.




Gömrük prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi də, öz növbəsində, Azərbaycanın xarici ticarət dövriyyəsinin daha da artmasına imkan verəcək. Çünki son illərdə qeyri-neft sektorunun inkişafı və bundan qaynaqlanan idxal-ixrac əməliyyatlarının həcminin artması gömrük prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsini vacib edir. Eyni zamanda, Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərinin yaratdığı tranzit potensialından tam şəkildə yararlanmaq daha sadə və sürətli gömrük prosedurları tələb edir.

Bir sözlə, qanunvericilik sahəsində kompleks işlərin həyata keçirilməsi gömrük orqanlarının praktik fəaliyyətinin də şəffaf və yüksək səviyyədə qurulmasına təkan verib. Belə ki, Prezident İlham Əliyevin "Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 4 mart 2016-cı il tarixli Sərəncamı Azərbaycan gömrük orqanlarına gömrük bəyannamələrini elektron formada qəbul edərək vətəndaş-məmur təmasını minimum səviyyəyə endirməyə imkan yaradıb. 2016-cı il may ayının 4-dən isə ölkənin gömrük sərhədindən keçirilən bütün mal və nəqliyyat vasitələri üçün elektron bəyannamə tətbiq edilir. Gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi, həmçinin müxtəlif bürokratik əngəllərin və vaxt itkisinin aradan qaldırılması məqsədilə sahibkarlar idxal etdikləri mallar və nəqliyyat vasitələri barədə qısa idxal bəyannaməsi təqdim etməklə beynəlxalq praktikada müsbət təcrübə kimi qəbul olunmuş ilkin bəyanetmə elektron xidmətindən yararlana bilirlər. İdxal-ixrac əməliyyatlarını həyata keçirən fiziki və hüquqi şəxslər mallar və nəqliyyat vasitələri gömrük sərhədini keçənədək gömrük orqanlarına qabaqcadan, müvafiq olaraq qısa idxal və ya qısa ixrac bəyannaməsi təqdim etməklə, gömrük orqanlarını apardıqları xarici iqtisadi fəaliyyət barədə məlumatlandırırlar. "Yaşıl dəhliz" və digər buraxılış sistemlərinin tətbiqi sayəsində də idxal-ixrac əməliyyatları sadələşdirilib, bu da, öz növbəsində, ticarətin asanlaşdırılması və tranzit yüklərin daşınmasınının sürətləndirilməsində mühüm rol oynayır. Biznes nümayəndələri artıq "Azexport" portalı və "ASAN xidmət" vasitəsilə də gömrük xidmətlərindən yararlanır, eləcə də hazırda 25 xarici iqtisadi fəaliyyət iştirakçısı "yaşıl dəhliz" buraxılış sistemindən istifadə edir. Məhz Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə xarici dövlətlərin yük avtomobillərinin, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri 2016-cı il iyun ayının 1-dən etibarən 3 il müddətinə Azərbaycanda yol vergisindən azad olunub.

Fiziki şəxslər tərəfindən ölkəyə gətirilən malların bəyanetmə prosedurları da sadələşdirilib. Dövlət Gömrük Komitəsi fiziki şəxslər tərəfindən malların daha rahat və şəffaf qaydada bəyan edilməsini təmin etmək üçün yeni "Fiziki şəxslər üçün sadələşdirilmiş bəyannamə" elektron xidmətini e-hökumət portalına inteqrasiya edib. Artıq ölkəmizə gələn və ölkəmizdən gedən vətəndaşlar gömrük sərhədindən keçirdikləri mallar, nəqliyyat vasitələri, zinət əşyaları və valyuta, müşayiət olunmayan baqajla və ya daşıyıcı tərəfindən keçirilən mallar və s. barədə məlumatları qabaqcadan, gömrük məntəqəsinə gəlmədən "onlayn" qaydada Dövlət Gömrük Komitəsinin internet saytı, ya da e-hökumət portalı vasitəsilə gömrük orqanlarına təqdim edə bilirlər.

Göründüyü kimi, Azərbaycanın gömrük orqanları fəaliyyətini dünya standartları səviyyəsində təşkil edib və daim təkmilləşmə prosesini keçir. Təsadüfi deyildir ki, bu gün bir sıra ölkələr Azərbaycan Gömrük Xidmətinin təcrübəsini də öyrənir, bu istiqamətdə əməkdaşlıq əlaqələrini davam etdirir. Ukrayna, Belarus, Qırğızıstan, Özbəkistan, Əfqanıstan və digər ölkələrin gömrük xidmətlərinin nümayəndə heyətləri Azərbaycana səfər edərək, əsasən, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, həmçinin "bir pəncərə" prinsipi və "yaşıl dəhliz" buraxılış sistemi, qaçaqmalçılıq hallarına qarşı mübarizə sahəsində Azərbaycan tərəfinin təcrübəsindən yararlanırlar. Bütün bunlarla yanaşı, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin gömrük işinin müasirləşdirilməsi, eləcə də narkotiklərlə mübarizə sahəsində göstərdiyi səylər və qazandığı nailiyyətlər Ümumdünya Gömrük Təşkilatı, Birləşmiş Millətlər Təşkilatı və digər nüfuzlu beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir.

***Tünzalə İsmayılova,***
***"Azərbaycan Gömrüyü - bu gün və sabahın çağırışları" mövzusunda yazı müsabiqəsinə təqdim olunur***

TƏRS BAXIŞ

# KXCP-də gərginlik davam edir

*Etirazçılar Mirmahmud Mirəlioğlunu pozuculuqda ittiham edirlər*

***Klassik Xalq Cəbhəsi Partiyasında gərgin vəziyyət davam edir. Daha öncə də xəbər verdiyimiz kimi, partiyanın "Milli Şura"da yeganə təmsilçisi olan Oqtay Gülalıyevin AXCP sədri Əli Kərimlinin göstərişinə əsasən, "klassiklər" arasında bölücülük salması, xüsusilə, sədr Mirmahmud Mirəlioğluna qarşı aşkar kampaniya aparması etirazçıların çoxalmalarına səbəb olmaqdadır.***

Misal üçün, hələ 3 il öncə, KXCP-də bənzər olaylar yaşanmışdı və onda da Ə.Kərimlinin müdaxiləsinin olması barədə bəzi faktlar ortaya çıxmışdı. Həmin ərəfədə partiya qurultaya hazırlaşırdı və M.Mirəlioğlunun tələbi ilə KXCP sıralarından qovulduqları iddia edilən tərəflər - Demokratik Birlik Fraksiyasının üzvləri də bəyan edirlər ki, onlar bu günün özündə də "klassik" cəbhəçi olaraq qalmaqdadırlar və barələrində verilən qərarların heç birini legitim hesab etmirlər.

Xatırlatmaq olar ki, DBF təmsilçisi İsmayıl Yusifov iddia edirdi ki, narazıların iştirakı olmadan keçirilən qurultayın nəticələri tanınmır. Maraqlı nüanslardan biri də budur ki, hazırda O.Gülalıyev növbəti qurultayda sədr olmaq üçün Ə.Kərimlidən hər cür dəstəyi alır və o cümlədən, zamanında KXCP sıralarından qovulan fraksiyaçıları, sədr olacağı halda, yenidən partiya sıralarına cəlb edəcəyini bildirir.

## İsmayıl Yusifov: "KXCP uğrunda mübarizəmizi davam etdirəcəyik"

Demokratik Birlik Fraksiyasının təmsilçisi İ.Yusifov yenidən üzə çıxaraq, KXCP-nin verdiyi qərarları tanımayacağını bəyan edib və O.Gülalıyevə sədr seçilməsi üçün hər cür dəstək göstərəcəklərini bildirib. "Qarşı tərəf iddia edir ki, KXCP-nin İsmayıl Yusifov adlı üzvü yoxdur. Bu da olduqca absurd cavabdır. Çünki mən 2006-cı ildən partiyanın üzvüyəm, sədrin müavini, 6 il idarə heyətinin üzvü olmuşam, ali məclisdə təmsilçiliyim olub. Eyni zamanda, KXCP xətti ilə deputatlığa namizəd olmuşam. KXCP uğrunda mübarizəmi davam etdirəcəyəm"-deyə qeyd edən etirazçı fraksiyaçı rayon təşkilatlarında kifayət qədər dəstəkçilərin olduğunu da deyib.



## AXCP sədri Əli Kərimli KXCP-ni parçalamaq ittihamlarını nə rədd edir, nə də qəbul edir

KXCP rəhbərliyi elan edir ki, partiya daxilində Demokratik Birlik Fraksiyası mövcud deyil, İ.Yusifov adlı partiya üzvü də yoxdur. O cümlədən, O.Gülalıyevin dedikləri heç vaxt reallaşmayacaq. Buna baxmayaraq, qarşı tərəf özlərini KXCP-nin yaradıcıları qrupuna aid edir. Görünən isə budur ki, partiyanın belə bir vəziyyətə düşməsində əsas maraqlı olan tərəf AXCP sədri Ə.Kərimlidir. Bunu sədr M.Mirəlioğlu və müavini Xəzər Teyyublu da dəfələrlə bəyan ediblər. Ancaq nədənsə, Ə.Kərimli, hələ ki, bu ittihamları nə rədd, nə də qəbul edir. Yəqin ki, bu ittihamların kökü kəskin savaşla nəticələnəcək. Belə ki, qeyd edilən proseslər də, məhz həmin istiqamətdə inkişaf etməkdədir.

**Rövşən RƏSULOV**

# Müxalifətin evi dağılıb, sözü də tükənib

***Məlum faktdır ki, dağıdıcı müxalifətin evini yıxan və cəmiyyətin gözündən salan birinci səbəb xarici qüvvələrə işləmələridirsə, ikinci məqam da öz aralarında birinci olmaq iddiası ilə çıxış etmələridir. Bu qovğa və qarşıdurmalar sonda ciddi problemlərin yaranmasına gətirib çıxarıb.***

Daha doğrusu, partiya liderləri arasında formalaşmış birincilik mücadiləsi təşkilatların digər qurumlarına da sirayət edir. Beləcə, "düşmənçilik" hissləri sıravi üzvlərə də keçir ki, nəticədə, partiyalardan kütləvi qopmalar, bir partiyadan digər partiyalara transferlər baş verir. Proseslərə əsasən, demək olar ki, hazırkı mərhələdə daha cox AXCP-Müsavat qarşıdurması diqqəti cəlb edir. Xüsusilə də, Müsavatın "Milli Şura" deyilən qondarma qurumdan çıxmasından sonra iki partiya arasında münasibətlərin gərginləşdiyi müşahidə olunub. VHP sədri Sabir Rüstəmxanlı bildirir ki, müxalifətin ciddi iflasa uğramasının başlıca günahkarı AXCP və Müsavatdır: "Bu partiyaların ikisinin bir araya gələ bilməməsi həmişə birlik istəklərini reallaşdırmağa imkan verməyib. Vaxtilə "Demkonqres"in, "SİDSÜH"un və digər qurumların dağılmasında da onlar rol oynayıb. AXCP ilə Müsavatın qarşılıqlı ittihamları və bir-birini qəbul etməməsi həmişə müxalifət düşərgəsində ciddi parçalayıcı amil olub".

## Müxalifətin altında bomba var ...

Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov bildirib ki, vətəndaşların müxalifət partiyalarına inanmamaları, etimad göstərməmələri müxalifətin siyasi iflasının bariz nümunəsidir və hər bir Azərbaycan vətəndaşı illərdir ki, bunun şahididir: "İndi iflas prosesi müxalifət partiyalarının daxilinə keçib. Bunun aydın ifadəsini bu gün müxalifət partiyalarının içərisində olan proseslərdə müşahidə etmək olar. Özü də bu, təkcə Müsavat partiyasında deyil, AXCP-də də aydın şəkildə müşahidə olunmaqdadır".

Onun fikrincə, bu, onun göstəricisidir ki, bu partiyaların indiki şəkildə, indiki ideoloji baxışlar çərçivəsində mövcud olmasının mənasızlığını, artıq həmin partiyalarda fəaliyyət göstərən insanlar da dərk etməyə başlayıblar: "Onlar partiya daxilində çəkişmələri ilə sübuta yetirirlər, öz aralarında etiraf etmiş olurlar ki, bunlar səhv yoldadırlar. Birincisi, ideoloji baxımdan, ikincisi də apardıqları mübarizə metodları baxımından. İnkarçılıq, qərəzçilik heç bir siyasi təşkilata heç zaman uğur gətirməyib və nəticə etibarilə istər Müsavat partiyasında olan insanların əksəriyyəti, istər AXCP-də fəaliyyət göstərən insanlar, dərk etməyə başlayıblar ki, apardıqları mübarizə metodları təkcə cəmiyyət üçün deyil, həmin partiyaların özləri üçün də ziyanlıdır. Bu dərketmə bu gün həmin partiyaların daxilində baş verən proseslərin əsasını təşkil edir".



Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayevin sözlərinə görə, AXCP və Müsavat bir-birinə potoloji nifrət edən iki siyasi partiyadır. Onların ambisiyaları heç bir zaman imkan verməz ki, hər hansı bir məsələdə konsensus, razılaşma və ümumi fikir birliyi əldə olunsun: "Nəzərə alsaq ki, AXCP-nin Əli Kərimli kimi cığal, təkəbbürlü və konfliktə meyilli sədri var, o zaman bu, heç mümkün olmaz. Eyniadlı partiyalar öncəki illərdə, imitasiya xətrinə də olsa, birlik görüntüsü yarada bilirdilər. İndi heç o da yoxdur. "Milli Şura"nın iflasından sonra isə ümumən bu mövzuya qayıdılmır. Əksinə, meydanda qarşılıqlı ittihamlar, təhqirlər və söz atışmaları yer almaqdadır. Müsavat və AXCP arasında bundan sonra heç bir yaxınlaşmadan, müttəfiqlikdən, birlikdən söhbət gedə bilməz. Onlar ilan və yarpız qədər bir-birinə yaddırlar".

## İsa Qəmbər özü kimi Arif Hacılını da qara günə qoydu

Bir sözlə, görünən odur ki, AXCP ilə Müsavat arasında qarşıdurma - sağalması mümkün olmayan xəstəliyə çevrilib. Bunun müalicəsi isə, hələ ki, tapılmır. Aradabir Müsavatın və ya AXCP-nin bəlli funksionerləri əllərində hazır reseptlə Qərbə və ABŞ-a dərman axtarışı üçün üz tutsalar da, nəticəsiz geri qayıdıblar. Səbəb yenə də, hər iki partiya yetkilisinin boyunlarında böyük iddialarla çıxış etmələridir. Müsavatın qara günlərinin partiyanın 8-ci qurultayından sonra başladığını desək, səhv etmərik. Çünki İ.Qəmbərin başqanlıqdan getməsi partiyadan yeni qopmaların baş verməsi ilə müşayiət olundu. Çoxları bunu A.Hacılının başqanlığa yaramaması ilə əlaqələndirsə də, əslində, yığılıb-qalan problemlərin yeni dönəmdə qabarıq şəkildə üzə çıxması ilə bağlıdır. Çox maraqlıdır ki, A.Hacılı sürətlə dağılmağa doğru hərəkət edən Müsavatdaxili vəziyyətə özünəməxsus şəkildə don geyindirməyə uğursuz cəhdlər göstərib. Bildirib ki, baş verənlər fikir plüralizmi və demokratik dəyişikliklərin nəticəsidir. Müsavat başqanının müavini Osman Kazımov isə "gedən prosesləri nəzərə alıb heç nədən çəkinmədən partiyada təmizləmə aparmaq lazımdır" deyir. Bu isə, özlərinin özlərini ifşa etməsi deməkdir. Çünki istər başqan, istərsə də müavin bir-birindən fərqli fikir söyləyirlər. Amma hansının və ya kimin nə fikir söyləməsindən asılı olmayaraq, onu demək olar ki, Müsavatı dərin uçurum gözləyir. Hansı ki, bu uçurumdan Müsavatın çıxması mümkünsüz görünür.

**İ.ƏLİYEV**

# Aqressiv müxalifətin rəzalət zirvəsi

***Antiazərbaycançı qüvvələrlə daim sıx əməkdaşlıq edən aqressiv müxalifət düşərgəsində qarşıdurmalar, qarşılıqlı ittihamlar və ziddiyyətlər davam etməklə yanaşı, özlərini "lider" adlandıranlar ara-sıra ölkədə cərəyan edən məişət xarakterli hadisələri də siyasiləşdirməklə, özlərinə ucuz xal qazanmağa çalışırlar. Fakt isə budur ki, sözügedən düşərgə, sözün həqiqi mənasında, ciddi böhranla üz-üzədir. Daha dəqiq desək, başdan-ayağa yalan və ziddiyyətlə dolu bu düşərgədə keçmişdən qalan ənənə davam edir. Aydın görünür ki, bir partiyanın təmsilçisi digərini həzm edə bilmir.***

## Siyasəti gəlir mənbəyinə çevirənlər

AXCP və Müsavat partiyaları arasında baş verən gərginlik, həm də partiya rəhbərlərinin qarşısıalınmaz ambisiyalarından qaynaqlanır. Özlərini cəmiyyətə guya aparıcı siyasi partiyalar kimi təqdim etməyə çalışan Müsavat və AXCP rəhbərləri bura siyasi qurum kimi deyil, gəlir mənbəyi kimi baxırlar. Onlar bir-birləri ilə xaricdən almaq üçün müxtəlif qrant layihələri uğrunda mübarizə aparırlar. Nəticədə, gülünc bir mənzərə ortaya çıxır. Bir zamanlar onların "Milli Şura" ətrafında bir yerdə olmaları da gözdən pərdə asmaq üçün oyun idi və burada da xalq və dövlət maraqları deyil, şəxsi maraqlar rol oynayırdı. Bu yolla onlar xarici qüvvələrdən hansı təminatlar ala və nələr qopara biləcəkləri haqqında düşünürdülər. Nəticədə, bu iki təşkilatın bir-birinə nə qədər nifrət etdiyinə bir daha şahid oluruq. Necə deyərlər, bunlar siyasəti gəlir mənbəyinə, maddi təminatlarının həll olunması üçün bir vasitəyə çeviriblər. Burada da maraqlar toqquşanda, ortaya yeni mübahisələr çıxır. İsa Qəmbərin başqanlıq postunu Arif Hacılıya ötürməsindən sonra, indi də yeni başqanla Əli Kərimli arasında gah açıq, gah da gizli mübarizə gedir. Əvəzində isə, bunlardan heç biri nə baş verənlər üçün məsuliyyət daşıyır, nə də mənsub olduqları partiyanın üzvləri qarşısında hesabat verirlər. Onlar partiya üzvlərinin hər hansı konstruktiv fikirlərini də qulaqardına vururlar. Əbəs deyil ki, partiyalardan baş verən istefalar da, məhz bu kimi hallara görədir.

Digər fakt isə budur ki, antiazərbaycançı, ermənipərəst xarici dairələrin "beşinci kolonu" kimi çıxış edənlər, nə edirlər-etsinlər, heç vaxt cəmiyyətin rəğbətini qazana bilməyəcəklər.

## Müxalifət özünü çoxdan məhvə sürükləyib

Bu arada Azərbaycan Prezidenti Cənab İlham Əliyevin dırnaqarası müxalifət barədə dediyi fikirlərini xatırlaya bilərik: "Bəzi satılmış müxalifət qruplarının fəaliyyəti heç bir səmərə vermir. Bizim ayağımıza dolaşmaq istəyənlər yenə də rəzil olurlar". Bəli, məhz belədir, ölkəmizin və xalqımızın əleyhinə çıxış edənlər rəzalət zirvəsində siyasi ölümə məhkumdurlar!

Zaman-zaman belə bir sual yaranır - bu cür şəxsi ambisiyalar uğrunda çalışan, antiazərbaycançı qüvvələrin buyruq qulu olan bu şəxslər və partiyalar ictimai-siyasi proseslərə təsir edə bilərlərmi? Əlbəttə ki, xeyr! Digər tərəfdən isə, dünya təcrübəsinə görə, siyasi partiyanın gücü seçkilərdə müəyyənləşir. Əgər partiya seçkilərdə uğur qazana bilirsə, deməli, ictimai-siyasi proseslərə təsiri var. Bu gün Azərbaycanda müxalifətin vəziyyəti cəmiyyətə bəllidir. Odur ki, mövcud müxalifətdən yeni nəsə gözləmək, sadəcə, sadəlöhvlük olardı. Çünki artıq müxalifət özünü çoxdan məhvə sürükləyib.

**Rövşən RƏSULOV**

# Uşaq hüquqlarının müdafiəsinə dair dövlətdaxili və beynəlxalq qanunvericiliyin qarşılıqlı münasibətləri

***IV** Cenevrə Konvensiyasının müddəalarına əsasən, münaqişənin tərəfləri müharibə nəticəsində yetim qalmış və ya öz ailələrindən ayrı düşmüş 15 yaşınadək uşaqların başlı-başına qalmaması və bütün hallarda onların saxlanmasını, öz dini etiqadlarını həyata keçirmələrini və təlim-tərbiyəsini asanlaşdırmaq üçün zəruri tədbirlər görməlidirlər. Onların təlim-tərbiyəsi, imkan daxilində, eyni mədəni ənənələrə malik olan şəxslərə həvalə edilməlidir. Bu uşaqların münaqişə müddətində bitərəf ölkədə qəbul edilməsi də, məhz bu prinsipə uyğun həyata keçirilməlidir. İşğalçı dövlət müharibə nəticəsində yetim qalmış və ya öz valideynlərindən ayrı düşmüş, yaxın qohumlarından və ya dostlarından qayğı görməyən uşaqların, əgər mümkündürsə, onların öz milliyyətindən, dinindən və dilindən olan şəxslər tərəfindən saxlanılması və təhsil verilməsi üçün tədbirlər görməlidirlər.*

I Əlavə Protokola əsasən, uşaqlar silahlı münaqişələrlə bağlı səbəblərə görə, həbs edildikdə, tutulduqda və ya internə edildikdə, yaşlılardan ayrı binalarda saxlanılırlar, bu zaman ailələrin ayrılıqda yerləşdirildiyi hallar istisna edilir.

Nadir Adilov yazır: "Hərbi konfliktlər dövründə uşaqların müdafiəsi BMT-nin xüsusi diqqətində olmuşdur. 1974-cü ildə BMT Baş Məclisi tərəfindən Fövqəladə vəziyyətlərdə və hərbi konfliktlər dövründə Qadınların və uşaqların müdafiəsi haqqında Bəyannamə qəbul edilmişdir. 10 oktyabr 1995-ci il tarixli BMT Baş Məclisi tərəfindən qəbul edilmiş Qətnamə bütün ölkələrə ekstrimal hərbi konfliktlər dövründə olan uşaqların müdafiəsini nəzərdə tutan dəqiq tövsiyələri nəzərdə tutur, 1993-cü ildə BMT Baş Məclisi tərəfindən qəbul edilmiş 48/157 saylı "Hərbi konfliktlər dövründə uşaqların müdafiəsi" adlı qətnamə ilə, bilavasitə bu məqsədlərlə xüsusi ekspert (məruzəçi) postu yaradılmışdır. 1996-cı ildə bu vəzifəyə Olara A.Otunnu təyin edilmişdir.

BMT-nin əməliyyatlarında isə BMT Baş Katibinin 29 oktyabr 1998-ci il tarixli bəyanatında göstərildiyi kimi, mülki polis və hərbi müşahidəçilər üçün 25 yaşdan aşağı olmamalı, hərbi xidmətçilər üçün 18 yaşdan az olmamaqla, 21 yaşdan yuxarı qeyd edilmişdir.

Bir sıra qəbul edilmiş sənədlər də hərbi konfliktlər dövründə uşaqların hüquqlarının müdafiəsinə yönəlmişdir. Belə ki, 1998-ci ildə qəbul edilmiş Beynəlxalq Cinayət Məhkəməsinin Roma statusu ilə 15 yaşına qədər uşaqların milli hərbi qüvvələrin tərkibinə yığılması və cəlb edilməsi, onlardan hərbi hərəkətlərdə istifadə edilməsi hərbi cinayətlər kimi xarakterizə edilir. 1999-cu il tarixli 182 saylı BƏT Konvensiyası 18 yaşına qədər uşaqların hərbi konfliktlərdə istifadə edilməsi üçün məcburi və zorla yığılmasını qadağan edir".

Bu istiqamətdə spesifik dövlətdaxili normativ-hüquqi akt kimi "Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" 1995-ci il AR Qanunu qeyd edilə bilər. Bu Qanunun Preambluası daha diqqətəlayiqdir. Burada deyilir ki, Qanun beynəlxalq humanitar hüquq normalarının, insanla humanitar rəftar edilməsi, onun şəxsiyyətinə və şərəfinə hörmət bəslənməsi üçün dövlət təminatlarının müəyyənləşdirilməsinin vacibliyini, müxtəlif səbəblərdən silahlı münaqişə zonasına düşmüş mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması üçün təminatların AR tərəfindən qeyd-şərtsiz təsdiq olunması əsas götürməklə qəbul edilir.

Beləliklə, uşaqların hərbi konfliktlər dövründə müdafiəsi ilə bağlı belə bir nəticəyə gəlmək olar ki, hərbi konfliktlər dövründə uşaqların hüquqlarının müdafiəsi aktual olmaqla, xüsusi diqqət tələb edilməklə, bu sahədə yeni yanaşmaların işlənib-hazırlanmasını tələb edir.

Bu zaman, ilk növbədə, həm beynəlxalq, həm də qeyri-beynəlxalq xarakterli konfliktlər dövründə uşaqların hüquqlarının müdafiəsini özündə tamamilə yekdil formada əks etdirə bilən yeni beynəlxalq-hüquqi sənədin qəbul edilməsi zəruriliyi bildirilməlidir. Bu beynəlxalq sənəddə isə hərbi konfliktlər dövründə bütün uşaqların hüquqlarının müdafiəsinin nəzərdə tutulması, 18 yaşdan aşağı uşaqların hərbi əməliyyatlara cəlb edilməsinin şərtsiz qadağan edilməsi, böyüklərə nisbətən uşaqların yüksək hüquqi müdafiəsinə əməl edilməsi və s. kimi məsələlər ətraflı şəkildə əks etdirilməlidir.

Eyni zamanda, hərbi konfliktlər dövründə uşaqların hüquqlarının müdafiəsi üzrə nəzarət mexanizmlərinin səmərəliliyinin artırılması, bu istiqamətdə xüsusi bir nəzarət orqanının təkmilləşdirilməsi, BMT-nin bu sahədə rolunun artırılması, daha sonra, milli səviyyələrdə səmərəli nəzarət mexanizminin formalaşdırılması zəruriliyi və s. qeyd edilməklə, əsas müddəalar müəyyən edilməlidir.

N.Adilovun fikrincə, uşaqların hüquqi statusunun beynəlxalq və dövlətdaxili normativ-hüquqi əsaslarının öyrənilməsi və tədqiqi bir neçə aspektdən əhəmiyyətlidir. İlk növbədə, nəzəri cəhətdən bu normaların qarşılıqlı şəkildə öyrənilməsi və müqayisə edilməsi həyata keçirilir. İkincisi, bu sahədə beynəlxalq standartların dövlətdaxili qanunvericilikdə rolu müəyyən edilir. Üçüncüsü, milli qanunvericilik, bir tərəfdən, beynəlxalq standartlara uyğunlaşdırılırsa, digər tərəfdən, başqa dövlətlərin daxili qanunvericiliyi ilə müqayisə edilir, bu isə dövlətlərin milli qanunvericiliklərinin kifayət qədər yaxınlaşmasına səbəb olur, qanunvericiliklər arasında kolliziyalar aradan qalxır.

Bu zaman beynəlxalq normalar, yəni insan hüquqları sahəsində beynəlxalq sənədlər əsasında və bilavasitə, onlara uyğun olaraq, hər bir dövlətdə uşaqların hüquqi statusunu tənzim edən milli qanunvericiliyin qəbul edilməsi zəruriliyi, ilk növbədə, qeyd edilməlidir.

Həmin dövlətdə milli qanunvericilik normalarının beynəlxalq hüquq normalarına ziddolmaması daha təqdirəlayiq hal hesab edilməli və müsbət qiymətləndirilməlidir. Belə ki, beynəlxalq hüquq norması beynəlxalq-hüquqi tənzimetmə mexanizminin zəruri elementidir və bunsuz beynəlxalq hüquqi tənzimetmənin fəaliyyəti mümkün deyildir. Beynəlxalq hüquq normaları dövlətlərin beynəlxalq sferada fəaliyyətinin qiymətləndirici kriteriyasıdır.

İ.N.Lukaşin yazır ki, 2000-ci ildə qəbul edilmiş BMT-nin Minilliyin Bəyannaməsində beynəlxalq məsələlərdə olduğu kimi, milli işlərdə də insan hüquqlarına hörmət edilməsi prinsipinin möhkəmlənməsi barədə dövlətlərin razılığı ilə bərabər, beynəlxalq və daxili qanunçuluğun vahidliyi ideyası əks olunmuşdur. Hüquq ədəbiyyatında haqlı olaraq qeyd edilir ki, təminatlar-şəxsiyyətə özünün huquq, azadlıq və maraqlarını həyata keçirmək üçün bərabər imkanlar yaradan sosial-iqtisadi, siyasi, əxlaqi, hüquqi, təşkilati şərait, üsul və vasitələrin sistemidir və öz fəaliyyəti siferasına görə dövlətdaxili və beynəlxalq təlimatlara bölünür. Dövlətdaxili təminatlar, bilavasitə insan və vətəndaş hüquqlarının müdafiəsini təmin edən sosial-iqtisadi, siyasi, əxlaqi və hüquqi üsul və vasitələrin sistemidir. Onlar, ilk növbədə, ölkə qanunları, ya da konstitusiya əhəmiyyətli aktlarda təsbit olunur. Beynəlxalq təminatlar-insan və vətəndaş hüquqlarının müdafiəsini təmin edən beynəlxalq cəmiyyətin iqtisadi, siyasi, ideoloji və təşkilati xarakterli kollektiv tədbirlərdir.

V.A.Karaşkinin fikrincə, insan hüquqları, o cümlədən, uşaq hüquqları sahəsində başlıca məsələlərdən biri də bu sahədə beynəlxalq və dövlətdaxili hüquq normalarının qarşılıqlı əlaqələrinin təhlilidir. İnsan Hüquqları üzrə ATƏT-in 1991-ci il Moskva toplantısında iştirakçı-dövlətlər bəyan etmişlər ki, insan hüquqları bütün dövlətlərin, bilavasitə və qanuni qayğısıdır və maraqlı dövlətin daxili səlahiyyətinə müstəsna olaraq aid deyildir. Bütün dövlətlər insan hüquqları sahəsində beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına, o cümlədən, dövlətin özünün bu sahədə beynəlxalq öhdəliklərinə əməl etməyə borcludur. Hüquq ədəbiyyatında haqlı olaraq göstərilir ki, insan hüquqları sahəsində çoxlu sayda beynəlxalq sazişlərdə iştirak edən dövlətlər Pacta Sund Servanda prinsipinə uyğun olaraq, onları vicdanla yerinə yetirməli və bu məqsədlə də beynəlxalq ölkədəliklərin realizəsi üçün dövlətdaxili tədbirlər həyata keçirməlidirlər.

Yuxarıda göstərilənlərlə tam razılaşaraq belə qənaətə gəlmək olar ki, dövlətlər qarşısında duran əsas və birinci dərəcəli vəzifələrdən biri insan hüquq və azadlıqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi üçün zəruri şəraitin yaradılmasıdır. Məlumdur ki, beynəlxalq hüquq normaları yalnız dövlətdaxili hüquq sistemlərinin iştirakı ilə realizə oluna bilər. Bu mənada, Q.V.İqnatenko qeyd edir ki, beynəlxalq hüquq normalarının implementasiyasının mühüm vasitəsi kimi dövlətdaxili tədbirlər qismində müəyyən qanunvericilik və digər normativ aktların qəbul edilməsi, həmçinin, təşkilati xarakterli tədbirlərin görülməsi çıxış edir.

Dövlətdaxili və beynəlxalq hüququn uzlaşdırılması üsulları müxtəlifdir və konkret dövlətin hüququndan asılıdır. Doğrudur, burada bir qeyd-şərt etmək lazımdır: dövlətlər uzlaşmanın müəyyən üsullarından istifadə haqqında razılaşmaya gələ bilərlər. Lakin bu prosesin mahiyyəti həmişə eynidir: yəni bu, dövlətin öz daxili hüququnu beynəlxalq hüquqla müəyyən olunan göstərişləri, icazələri və qadağaları icra etməyi təmin etmək məqsədilə sonuncuya uyğunlaşdırmaqdan ibarətdir. 1969-cu il Beynəlxalq Müqavilələr Hüququ haqqında Vyana Konvensiyasının 26-cı maddəsinə əsaslanaraq, qeyd edə bilərik ki, beynəlxalq hüququn əsas prinsiplərindən olan Pacta Sunt Servanda prinsipinə müvafiq şəkildə hər bir müqavilə onun iştirakçıları üçün məcburidir və vicdanla yerinə yetirilmişdir. Bununla əlaqədar olaraq göstərilir ki, beynəlxalq hüquq dövlətlərdən öz öhdəliklərini yerinə yetirməyi tələb edir. Bu zaman bu üsul və vasitələri seçmək isə məcburi deyildir. Belə ki, dövlətlər özünün müqavilə öhdəliklərini yerinə yetirmək üzrə vasitələrin seçilməsinə müstəqildirlər. Daha bir maraqlı müddəa A.N.Talalayev tərəfindən irəli sürülür. Belə ki, A.N.Talalayev qeyd edir ki, beynəlxalq müqavilələrlə öhdəliklərin yerinə yetirilməsinin bu və ya digər qaydasının müəyyən edilməsi hər bir dövlətin daxili işidir. Beynəlxalq hüquqda bununla əlaqədar normalar yoxdur. Burada əsas məsələ beynəlxalq müqavilənin yerinə yetirilməsi ilə əlaqədar nəticədir.

Bütövlükdə, dövlətdaxili hüquq beynəlxalq hüquqla elə uzlaşdırılmalıdır ki, sonuncunun həyata keçirilməsini təmin etsin. Artıq qeyd edildiyi kimi, dövlətlər uzlaşmanın müəyyən üsullarından istifadə haqqında razılaşmaya gəlsələr də, bu prosesin mahiyyəti həmişə eynidir: yəni bu, dövlətin öz daxili hüququnu beynəlxalq hüquqda müəyyən olunan göslərişləri, icazələri və qadağaları icra etməyi təmin etmək məqsədilə beynəlxalq hüquqa uyğunlaşdırmaqdan ibarətdir. Göstərilən prosesin hüquq ədəbiyyatında adlandırılması mühüm fikir ayrılıqlarına səbəb olur. Bunun üçün isə "transformasiya", "resepsiya", "milli-hüquqi implementasiya" və s. kimi terminlər qeyd edilir. Eyni zamanda, beynəlxalq hüquq ədəbiyyatında bu terminlərin beynəlxalq hüquq normalarının dövlətdaxili hüququda əks etdirilməsi istiqamətində müəyyən çatışmayan cəhətləri də qeyd edilir. Məsələn, S.V.Çerniçenko implementasiya anlayışı əvəzinə transformasiya anlayışından istifadə edir, transformasiyanın ümumi beş üsulunu-avtomatik inkorporasiya, göndərmə, fərdi inkorporasiya, adaptasiya, legitimasiya, eyni zamanda, hüquqi-texniki nöqteyi-nəzərdən isə, aşağıdakı növlərini fərqləndirir: inkorporasiya, legitimasiya və göndərmə.

R.A.Müllerson isə transformasiya terminini tənqid edərək, onun əvəzinə "beynəlxalq müqavilələrin implementasiyası" anlayışını irəli sürür. Göründüyü kimi, beynalxalq hüquq ədəbiyyatında bu məsələdə vahid anlayış yoxdur. A.S.Qaverdovskiy müvafiq prosesi resepsiya adlandırmağı təklif edir. E.M.Ametistovun fikrincə, dövlətlərin beynəlxalq normanın məqsədlərinin həyata keçirilməsinə yönələn davranışı beynəlxalq hüquqda "beynəlxalq hüquq normalarının implementasiyası" adlanır.

Qeyd etmək yerinə düşərdi ki, implementasiyanın mühüm formaları, nəinki dövlətin hüquq sistemindən, həmçinin, beynəlxalq normanın hüquqi xarakterindən asılıdır. Bu məsələləri təhlil edən L.H.Hüseynov qeyd edir ki, beynəlxalq hüquq müddəalarının implementasiyası, yəni həyata keçirilməsi, prinsip etibarı ilə, yalnız milli qanunvericiliyin və milli məhkəmənin iştirakı ilə mümkündür. Bu tələbin yerinə yetirilməsinin forma və vasitələrinin seçilməsi hər bir dövlətin öz konstitusiya qanunvericiliyində və praktikasında müəyyən olunur. Bunları qeyd edərək, L.H.Hüseynov insan hüquqları haqqında müqavilələrin dövlətdaxili qüvvəsinin təmin edilməsinin 3 əsas üsulunu ayırır: qəbuletmə (adoption), inkorporasiya və transformasiya.

Bu məsələləri təhlil edən E.T.Usenko göstərir ki, transformasiya özünün beynəlxalq öhdəliklərinin yerinə yetirməsini təmin etmək məqsədilə dövlətlər törətmədən daxili normativ aktın qəbul edilməsi yolu ilə beynəlxalq hüququn həyata keçirilmə üsulunu əks etdirir. Daha sonra, E.T.Usenko transformasiyanın iki növünü: baş və xüsusi transformasiyaları fərqləndirir. B.L.Zimnenkonun fikrincə, inkorporasiya beynəlxalq və dövlətdaxili hüquq normalarının razılaşdırılmasının mühüm üsuludur və bu, dövlətin beynəlxalq öhdəliklərinin realizəsi üçün dövlətdaxili normativ aktların qəbul edilməsində əks olunur.

**Vahid Ömərov,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*